

# İlham Əliyevlə Ərdoğan görüşdülər

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. "Unikal" xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çankaya Köşkündə dövlətimizin başçısını qarşıladı. Prezidentlər birgə foto çəkdirdilər.*

Səh.2


# UNİKAL

№09 (2094) 11 mart 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## "Ermənilər yenidən gərginliyi artırmaq niyyətindədirlər"

### Tofiq Zülfüqarov: "Sülhməramlıların bu ərazilərdə fiziki baxımdan qalması Rusiya üçün həm texniki, həm də maliyyə cəhətdən çətin ola bilər"

*Keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Unikal" qəzetinə müsahibə verib. O, Rusiya-Ukrayna müharibəsi, savaşın yaratdığı problemlər, gözlənilən nəticələr, buna paralel olaraq, Qarabağda baş verən proseslərlə bağlı fikirlərini bölüşüb.*

*-Tofiq müəllim, 15 gündür Rusiya-Ukrayna müharibəsi davam edir. Müharibənin bundan sonra nə qədər davam edəcəyini düşünürsüz?*

*-Hərbi əməliyyatlar davam edir. Hiss olunur ki, Rusiya tərəfi qoyulan məqsədlərə nail olmayıb. Hərbi əməliyyatlar gözlənilən kimi nəticə vermir. Ona görə də hərbi əməliyyatlar uzun müddət davam edə bilər. Bunu nəzərə alaraq qeyd etmək lazımdır ki, indi əsas hadisələr Ukraynadan başqa elə Rusiyanın özündə də baş verə bilər. İqtisadi böhran bu ölkədə çox kəskin şəkildə inkişaf edir.*

Səh.4

Səh.9



## ORDUMUZDAN SON HƏMLƏ: Qarabağda anti-terror əməliyyatı keçirilə bilər

## Cahangir Əsgərov inadından dönmür



*"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) uçuş biletlərinin bahalılığı ilə bağlı narazılıqlar səngimək bilmir. Bu problem illərdir Milli Məclisdə, mediada, ictimai çevrələrdə mütəmadi şəkildə gündəmə gətirilsədə, deputatlardan, iqtisadçı-ekspertlərdən tutmuş sadə vətəndaşlaradək hər kəs sözügedən...*

Səh.8

## Rusiya ordusu ədalət gətirir, yoxsa....



*Rusiya ilə Ukrayna arasında davam edən müharibə bütün dünyanı ciddi narahat etməkdədir. Tərəflər arasında danışıqlar prosesi davam etsə də, silahlı toqquşmalara ara verilmir. "Rusiya ilə Ukrayna arasında 10 raund görüş keçirilsə də, indiki şərtlər daxilində real nəticə olmayacaq.*

Səh.6

## Şimaldan iqtisadi böhranın soyuğu gəlir...



*Kür çayında yaranmış vəziyyət artıq narahatedici həddə çatıb. Kürdə suyun azalması səbəbindən kürqırağı yaşayış məntəqələri yayda vəziyyətin daha da pisləşəcəyindən ehtiyatlanırlar. Sosial platformada da Kür çayında suyun kəskin azalmasını əks etdirən şəkillər paylaşılıb. Həmin görüntülərdə Kür çayının ekoloji fəlakət astanasında olduğu qeyd edilir.*

Səh.5

# "Gülaya qulaq asanda az qalsın beynimə qan sızsın" - Elza Seyidcahan



***"Gülay mənsiz mahnını ifa edib və radioya verib. Xətrinə dəymədim. Orada deməlisən "əl çəksin kədər". Bu da deyir "əl çəssin kədər". "Çəssin" sözü var? Mən də maşında qulaq asanda, az qalsın beynimə qan sızsın. Bəstəkaram axı...".***

"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Elza Seyidcahan "Günün sədası" proqramında deyib. Müğənni Gülay Zeynallıya verdiyi bəstədən və onunla aralarından yaşanan narazıçılığı açıqlayıb:

"Gedib brend geyinirsiniz, qəşəng, "ledilər" geyinənləri geyinib, özünüzü "ledi" kimi göstərirsiniz. Ədəbi dilimizi də belə qoruyun. Mənə də instaqramda yazıb ki, pul verib almışam, ürəyim nə vaxt istəyəcək, oxuyacam. Mahnıya da az pul verib. Deyib, gücüm çatmır, mən də gücü çatan qədər aldım. Onun "Pul vermişəm, kefim istəyəndə oxuyacam" sözü xətrimə dəyib".

# "Ərim məni döydü, dedim, əllərinə qurban olum" - Cığatel İsaqızı



***Tanınmış şairə Cığatel İsaqızı "Onun sirri" verilişində qonaq olub.***

"Unikal" xəbər verir ki, şairə proqramda şəxsi həyatından danışıb. Cığatel İsaqızı həyat yoldaşının ona xəyanət etdiyini və şiddətə məruz qaldığını etiraf edib: "Bir xəstəliyim var. Məni vur, öldür, xəyanət et, başıma yüz oyun aç, amma sözün düzünü danış. Düz danışan adam üçün ölümə gedərəm. Həyat yoldaşım da xasiyyətimə bələd idi, çünki əvvəldən demişdim ki, nəbadə aramızda belə bir şey olmasın. Xəyanəti bağışlaya bilirəm, ancaq yalanı yox. Xəyanətini özü mənə etiraf etdi.

Ömrümdə bir dəfə idi, həyat yoldaşıma özümü yaxşıca döydürdüm. Elə gözəl döydü ki... Məni qəşəngcə silləledi, sanki o qısqanclıqdan azad oldum. Vururdu, qarşısında durmuşdum, tərpənmirdim. Sonra dedim ki, əllərinə qurban olum. Nə gözəl etdin, təşəkkür edirəm. Elə bildi ki, dəli olmuşam, məni silkələdi. Dedim qorxma, dəli olmamışam. Yəqin ki, sevgidən azad oldum".



# Afəti məhkəməyə Flora Kərimova veribmiş

***Müğənni Afət Fərmanqızı barəsində xüsusi ittiham qaydasında şikayət xalq artisti Flora Kərimova tərəfindən verilib.***

Bu barədə APA-ya açıqlamasında Flora Kərimova bildirib. Xalq artistinin sözlərinə görə, Afət Fərmanqızı onun müalicəsi barədə qeyri-etik ifadələr işlədib: "Mən xalq artistiyəm, sənətkaram. Afət Fərmanqızı mənim şərəf və ləyaqətimi təhqir edib. Həmçinin, ailə üzvlərim barəsində etik olmayan ifadələr işlədib. Ümid edirəm ki, məhkəmə mənim nüfuzumu və təhqir olunmağımı əsaslı hesab edəcək, ədalətli qərar verəcək".

Qeyd edək ki, Binəqədi Rayon Məhkəməsinə daxil olan şikayətdə müğənninin Cinayət Məcəlləsinin 147-ci (böhtan) maddəsi ilə ittiham olunması tələb edilir.

# "İnsanın geyimi daxili dünyasından xəbər verir" - Günay İbrahimli

***Müğənni Günay İbrahimli şou-biznesdə olan həmkarlarının geyimlərindən söz açıb.***



"Unikal" lent.az-a istinadən xəbər verir ki, ifaçı "Həmin Zaur" verilişində ən zövqlü hesab etdiyi müğənnilərin adını çəkib: "İnsanın geyimi onun daxili dünyasından xəbər verir. Zövqlü müğənnilərimiz var. Zülfiyyə Xanbabayevanın geyim tərzini bəyənirəm. Aygün Kazımovadır, Röyadır. Bəylərdən Ədalət Şükürov".

# Faiq Ağayevin bahalı üzük kolleksiyası var



***Xalq artisti Faiq Ağayev bahalı üzük kolleksiyasından danışıb.***

"Həmin Zaur" proqramına qonaq olan müğənni bu haqda sualları cavablandırıb.

Ağayev "Deyirlər, Faiq Ağayevin bahalı üzük kolleksiyası var" sualına belə cavab verib:

"Hamısı da hədiyyədir. Bir dənə ziynət əşyası almamışam. 33 ildir səhnədəym, hədiyyə edilib. Sayını bilmirəm. Aksessuar deyillər, xalis brilyantdır. Ziynət əşyalarını sevsəydim özüm alardım. Artistəm, üzərimdə alışıb-yanan nəsə olmalıdır".



## Əli Əsədov İnvestisiya Holdinqin Müşahidə Şurasının iclasını keçirib

***Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Baş nazir, AİH-nin Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində 2021-ci ildə Holdinqin görülən işlər barədə fəaliyyət hesabatı, üç portfel şirkətin "Azər-Türk Bank" ASC, "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti" və "Təmiz şəhər" ASC-nin fəaliyyətinin diaqnostikasının nəticələri, portfel şirkətlərində Koordinasiya Ofislərinin təşkili haqqında və digər cari məsələlər müzakirə edilib.

Holdinqin İdarə Heyətinin sədri Mətin Eynullayevin və Baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib. Həmçinin iclasda diaqnostikanın nəticələri barədə aidiyyəti portfel şirkətlərin Müşahidə Şurasının sədrinin və şirkət rəhbərlərinin çıxışları ətrafında geniş müzakirələr aparılıb.

## Putin öhdəliklərdən DANIŞDI

***Rusiya Avropaya və dünyanın digər ölkələrinə enerji resurslarının tədarükü ilə bağlı özünün bütün öhdəliklərini yerinə yetirir.***



"Unikal" TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin bildirib.

## Lukaşenko Putinlə görüşəcək

***Martın 11-də Belarus Prezidenti Aleksandr Lukaşenkonun Rusiyanın paytaxtı Moskvaya işgüzar səfəri baş tutacaq.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, səfər çərçivəsində Belarus lideri Rusiya Prezidenti Vladimir Putinlə görüşəcək.

# Cahangir Əsgərov inadından dönmür

## AZAL-da Müşahidə Şurasının yaradılması da bu dövlət şirkətinin anormal qiymət siyasətinə çarə olmadı

***"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) uçuş biletlərinin bahalılığı ilə bağlı narazılıqlar səngimək bilmir. Bu problem illərdir Milli Məclisdə, mediada, ictimai çevrələrdə mütəmadi şəkildə gündəmə gətirilsədə, deputatlardan, iqtisadçı-ekspertlərdən tutmuş sadə vətəndaşlaradək hər kəs sözügedən problemdən gileylənsə də, dəyişən heç nə yoxdur: Azərbaycandan nəinki uzaq məsafələrə səyahət etmək, qonşu ölkələrə uçmaq belə xeyli vəsait tələb edir.***

Məlumat üçün qeyd edək ki, 1992-ci ildə yaradılmış AZAL-ın donanmasına "Boeing" və "Airbus" şirkətlərinin istehsalı olan 18 sərnişin təyyarəsi daxildir. AZAL ölkəxarici 50 şəhərə, ölkədaxili isə 2 şəhərə müntəzəm uçuşlar həyata keçirir. Hazırda hava yolu ilə sərnişin daşımalarının 97 faizi AZAL-ın tabeliyindədir. Ölkədə "Buta" və Türk Hava Yolları (THY) şirkətləri də fəaliyyət göstərir. Lakin AZAL monopolist siyasətlə bu şirkətləri də özünə tabe etməyi bacarıb.

2020-ci ildə pandemiyanın vurduğu zərəri aradan qaldırmaq üçün dövlət büdcəsindən AZAL-a 87 milyon manat dotasiya verilib. Buna baxmayaraq şirkət həmin ili 160 milyon manat zərərlə başa vurduğunu açıqlayıb. Cahangir Əsgərovun rəhbərlik etdiyi dövlət şirkəti büdcədən verilən hər cür dəstəyə baxmayaraq borc batağlığındadır və...

Və dövlət xəzinəsi üzərində faktiki olaraq ağır yük olaraq qalmaqdadır!

Hər kəs AZAL-ın satdığı biletlərin qiymətlərindən narazıdırlar. İnsanlar qonşu ölkələrdəki bilet qiymətlərinin Azərbaycandan dəfələrlə ucuz olduğunu vurğulayırlar. Lakin bu bahalı qiymətlərə baxmayaraq, "Azərbaycan Hava Yolları" zərərlə işləməyə davam edir.

Birmənalı şəkildə demək olar ki, Əsgərovun QSC-si bu gün cəmiyyətin az qala bütün təbəqələrində narazılıq yaratmaqla məşğuldur!

Təsəvvür edin, ötən ilin 31 dekabr tarixindəki Tbilisi-İstanbul reysi "Pegasus" Hava Yolları vasitəsilə 82 manat təşkil edirdisə, eyni tarixdəki Bakı-İstanbul reysini AZAL 359 manata təklif edirdi. Yəni Gürcüstandan 4 dəfə baha qiymətə! Bu cür absurd fərqlərin səbəbini Cahangir müəllimdən soruşmaq mümkün deyil, çünki o, özünü elə aparır ki, sanki bahalı uçuş biletləri barədə Azərbaycan cəmiyyətinin heç bir narazılığı yoxdur, ya da həmin narazılıq hansısa başqa bir ölkənin hava yolları şirkətindəndir.

Deyəsən, AZAL "şef"ini ümumiyyətlə maraqlandırmır ki, rəhbəri olduğu QSC-nin bahalı biletləri təkcə vətəndaşın cibini soymur, ölkə büdcəsinə də zərbə vurur, belə ki, ölkəyə turist axınını əngəlləyir. Hər il Azərbaycanda turizmin inkişafı üçün büdcədən milyonlarla manat pul ayrılır. Bakıda və bölgələrdə yeni turizm sahələri yaradılır. Lakin AZAL-ın absurd qiymət siyasəti görülən bütün bu işlərin effektliliyinə xeyli dərəcədə mane olur.

Xatırladaq ki, ötən ilin martında bir sıra digər iri dövlət müəssisələrində olduğu kimi, "Azərbaycan Hava Yolları"nda da Müşahidə Şurası yaradılıb. Həmin vaxt bir sıra iqtisadçı ekspertlər, millət vəkilləri mətbuata açıqlamalarında bildirirdilər ki, həmin qurum "Azərbaycan Hava Yolları"nda növbəti 6 ay ərzində praktik olaraq bütün istiqamətlər üzrə xarici şirkətlər cəlb edilməklə, diaqnostik qiymətləndirmələr və təhlillər aparılacaq. Bu mərhələ həmin şirkətlərin fəaliyyətlərindəki səmərəliliyi artırmaq, daha şəffaf, daha qənaətcil, fiskal idarəetmə siyasəti həyata keçirmək məqsədi daşıyacaq. "Ən böyük gözləntilər də odur ki, Müşahidə şuraları yaradıldıqdan sonra, postpandemiya dövründə biz həm "Azərbaycan Hava Yolları"nın təklif etdiyi xidmətlərin, həm də biletlərin qiymətlərinin optimallaşdırılmasını görəcəyik. Bu, turizmin inkişafı baxımından da çox vacibdir" - deyə həmin açıqlamalarda bildirilirdi.



Lakin Müşahidə Şurasının fəaliyyətə başlamasından təxminən bir il keçir, ancaq biz AZAL-ın uçuş qiymətlərində hər hansı optimallaşma, ucuzlama hiss eləmirik. Maraqlıdır, təəccüblüdür, qəribədir, ən əsası isə müəmmalıdır: niyə? Ola bilərmi ki, Müşahidə Şurası bu QSC-nin rəhbəri Cahangir Əsgərovun anormal qiymət siyasətinə müdaxilə edə bilmir?!

Yeri gəlmişkən, ötən ilin sonlarında Milli Məclisdə "Turizm haqqında" qanunun müzakirəsi zamanı bir çox deputatlar AZAL-ın ünvanına sərt tənqidi fikirlər səsləndirmişdilər. Əksər deputatlar AZAL-ın qiymət siyasətinə etiraz edərək təyyarə biletlərinin həddindən artıq baha olduğunu bildirmişdilər. Məsələn, Aqil Abbas demişdi ki, Naxçıvanda kənd turizmi sahəsində işlərə başlanıb və nailiyyətlər var: "Bu gün burada hamı təklifləri dedi, danışdı. Bəs AZAL qiymətləri endirəcəkmi? Yox, endirməyəcək. Artıq İrəvandan İstanbula reys açılır, bizim pulla 80 manat. Mən də gözləyirəm, Zəngəzur dəhlizi açılsın, maşınla gedim İrəvana, oradan İstanbula uçum. Deputatların dediyi havada qalır. Sözümüzün havada qalması üçün bəlkə bu məsələyə qayıtmayaq?! AZAL qiymətləri qaldıra-qaldıra getsin? Özümüz deyirik, özümüz eşidirik. Benzin bizim, hər şey bizim. Dövlət də AZAL-a subsidiya verir. Amma xeyri yoxdur. Başqa ucuz şirkətlər gəlir, bir aydan sonra qaçıb gedirlər. Bəlkə bununla bağlı müraciət hazırlayaq?"

Qənirə Paşayeva: "Niyə qardaş Türkiyədən başqa ölkələrin uçuş xərcləri Azərbaycanla müqayisədə daha aşağıdır? Bunun səbəbi Türkiyə ilə bağlı deyil, Azərbaycanda bu işə məsul qurumlarla bağlıdır. Azərbaycana gəlmək Amerikaya gəlməyə çevrilib. Turizmin inkişafı məsələsinə kompleks yanaşılmalıdır".

Musa Quliyev: "Təyyarə biletlərinin baha olması turistlərin gəlişinə maneədir. Sərfəli olmayan bazar şərtləri aşağı büdcəli hava yolu şirkətlərinin cəlb olunmasına, uçuş istiqamətlərinin şaxələndirilməsinə və uçuş reyslərinin sayının artmasına maneə yaradır. Eyni zamanda, Azərbaycanda beynəlxalq statuslu regional hava limanları mövcud olsa da, birbaşa hava əlaqələrinin qurulmasında onlardan səmərəli istifadə edilmir..."

Lakin ölkənin ali qanunverici orqanının tribunasından səsləndirilən bu tənqidlər də AZAL rəhbərinin "tükünü tərpətmədi". Və belə görünür, Əsgərovun "Azərbaycan Hava Yolları"na rəhbərlik edəcəyi müddətdə bahalı uçuş biletləri problemi qalmağa davam edəcək, tənqidlər dilə gətiriləcək, di gəl, deputatın söylədiyi kimi, özümüz deyib özümüz eşidəcək, özümüz yazıb, özümüz oxuyacağıq...

***Toğrul Əliyev***

# ORDUMUZDAN SON HƏMLƏ: Qarabağda anti-terror əməliyyatı keçirilə bilər

***Ermənistanın baş naziri Nikol Paşinyan sülh sazişinin imzalanmasına hazır olduqları ilə bağlı bəyanatlar versə də, Qarabağda təxribatlar davam edir. Son günlər qanunsuz erməni silahlı dəstəsinin üzvləri müxtəlif istiqamətlərdə Azərbaycanın mövqelərini atəşə tuturlar.***

Belə ki, martın 10-u gecədən səhər saatlarınadək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri Ağdam rayonunun Çuxurməhlə, Qurdlar, Xıdırlı, Qaradağlı və Qasımlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərimizi müxtəlif çaplı silahlardan fasilələrlə atəşə tutub. Qeyd olunan istiqamətlərdə təxribatların qarşısını almaq məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab tədbirləri görülüb. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Ondan bir gün öncə də martın 8-i günorta saatlarından başlayaraq martın 9-u səhər saatlarınadək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri ordumuzun Xocalı və Goranboy rayonlarında yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub. Təxribatların qarşısını almaq məqsədilə bu istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb. Hazırda qeyd olunan istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır. Bildiririk ki, Azərbaycan Ordusu heç bir halda mülki infrastrukturu hədəfə almır, yalnız qanunsuz erməni silahlı dəstələrinin mövqelərinə dəqiq zərbələr endirir.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2021-ci il üçün hesabatında diqqətçəkən məqamlar yer alıb. Belə ki, Ermənistan tərəfindən il ərzində Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının əsas elementlərindən birini təşkil etmiş "hərbi əsirlər" mövzusu üzrə irəli sürülən əsassız ittihamların neytrallaşdırılması, məsələ ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması diqqət mərkəzində olub. Bildirib ki, Ermənistan tərəfinin bu kimi təxribat xarakterli hərəkətləri barədə müvafiq beynəlxalq təşkilatlara məktublar ünvanlanıb: "Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatı üzrə öhdəliyinə zidd olaraq, öz silahlı qüvvələrini qanunsuz olaraq Azərbaycan ərazilərinə yerləşdirməsi, o cümlədən, təxribat-diversiya qrupları vasitəsilə təxribat xarakterli addımları, "Laçın dəhlizi"ndən təyinatına zidd olaraq hərbi məqsədlərlə istifadə cəhdləri ilə bağlı Azərbaycan Respublikası adından BMT, ATƏT, Avropa Şurası və NATO-nun Baş katiblərinə, ATƏT-in Fəaliyyətdə olan Sədrinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali nümayəndəsinə, Rusiya Federasiyasının Xarici İşlər nazirinə məktublar ünvanlanıb".

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən Təkamül Partiyasının sədri Teyyub Qənioğlu ermənilərin həyasızlığı eləcə də, 10 noyabr razılaşmasına görə Qarabağda yerləşən Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətsizliyi nəticəsində təxribatların davam etdiyini bildirib. Onun sözlərinə görə, Rusiyanın "sülhpərvər" təşəbbüsü sayəsində II Qarabağ müharibəsinin sona çatmasını rəsmiləşdirən üçtərəfli sazişin imzalanmasından 16 ay keçir, ancaq təəssüf ki, bu sazişdə nəzərdə tutulduğu kimi "sülhməramlıların" müvəqqəti "işğal etdikləri" ərazilərdən erməni seperatçı quldur dəstələrinin tərkisilah edilib qovulması istiqamətində 16 sm də olsa, irəliləmək mümkün olmayıb: "Bunun əksinə olaraq ötən müddət ərzində Rusiyanın "sülhməramlı" qüvvələrinin özbaşınalığının, hər vəclə, bütün imkanlarını səfərbər edərək erməni seperatçılarını dəstəkləmələrini, nəzarət etdikləri ərazilərdə mənfur, qaniçən erməni faşistlərini silahlandıraraq möhkəmləndirmələrinin, özlərini bu ərazilərdə işğalçı kimi aparmalarının, Azərbaycanın süveren hüquqlarının kobudcasına pozulmasının və s. şahidi olmuşuq və olmaqdayıq. Rusiyanın müxtəlif bəhanələrlə, beynəlxalq hüququ heçə sayaraq Krımı işğal etməsi, süveren Ukrayna ərazilərində seperatçı, qondarma "respublikalar" yaradaraq onların "müstəqilliyini" tanıması azmış kimi, bu sülhsevər dövlətə qarşı görünməmiş miqyasda hücüm etməsi, kənd və şəhərlərini viran qoyaraq minlərlə dinc əhalini, o cümlədən uşaqları qətlə yetirməsi göstərir ki, bu dövlətə etibar etmək, onun "göz yaşlarına" inanmaq, etibar etmək qətiyyən olmaz. Rusiyanın tarixinə diqqətlə nəzər salsaq görərik ki, onun üçün digər dövlətlərlə imzaladığı sazişin, müqavilənin, onlardan irəli gələn heç bir öhdəliyin bir qəpiklik də olsa, mənası yoxdur".



Müsahibimiz onu da qeyd edib ki, Azərbaycan olaraq biz Rusiya ilə imzalanmış sazişlərə, müttəfiqlik müqavilələrinə inanmamalı, etibar etməməli, sayıqlığımızı itirməməliyik: "Biz, Azərbaycan olaraq, 10 noyabr 2020-ci il tarixli üçtərəfli sazişə uyğun olaraq, Rusiyanın öhdəsinə götürdüklərini yerinə yetirəcəyini gözləməməliyik. Rusiya yalnız güclə hesablaşır, gücü nəzərə alır. Ona görə də Azərbaycan daha da güclənməlidir- Rusiyaya qarşı yox (bu mümkün görünmür), özünü ondan müdafiə etmək üçün. Nə yaxşı ki, uca Tanrı bizlərə Türkiyə kimi dost, qardaş, müttəfiq nəsib edib. Ancaq bizə daha da qüvvətlənmək üçün yeni müttəfiqlər lazımdır. Hər şeydən göründüyü kimi, hal-hazırda belə müttəfiq yalnız Pakistan ola bilər. Ona görə də, fikrimizcə, Pakistanla da Şuşa Bəyannaməsinə oxşar Bəyannamənin imzalanması məqsədəuyğun olardı. Azərbaycan müstəqil, sülhsevər, mərd, etibarlı, sözübütov dövlətdir. Ona özü kimi müttəfiqlər lazımdır".

Siyasi şərhçi Aqşin Kərimov bizimlə söhbətində bildirib ki, Azərbaycan 10 noyabr bəyanatından sonra Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərindəki erməni separatçılarına qarşı fəaliyyətini dayandırmadı. Onun sözlərinə görə, Azərbaycan dövlətinin diplomatiyası və strategiyası fərqli idi, ilk vaxtlarda nə Xankəndinin, nə də Xocalının adı çəkilirdi, "səssiz hücumlarla" isə bu yekunun hasil olmasına hazırlanan addımlar atırdı: "Azərbaycan Ordusu keçən dövr ərzində sülhməramlıların nəzarət zonasında olan ərazilərə yaxın mövqelərini irəli çəkdi, Laçın dəhlizinə nəzarəti gücləndirdi, erməni separatçılarının mühasirəsini daraltmaq üçün müvafiq ərazilərdə hərbi hissələr, o cümlədən komando hərbi hissələrini yaratdı. Bu gün isə Azərbaycan tərəfi Xankəndinin də, digər ərazilərin də adlarını rahatlıqla çəkir və Azərbaycanın suveren ərazilərində qalan ermənilər üzərində psixoloji təzyiq metodunu işə salır. Bu, Ermənistanın sülhə gəlməsi üçündür, amma Bakı hərb variantını da gündəlikdən çıxarmayıb. Son dövrlər baş verən atışmalar isə bu fonda diqqət çəkir ki, Prezident İlham Əliyev Moskvaya sonuncu səfərində rusiyalı həmkarı Vladimir Putinlə mətbuata bəyanatında açıq şəkildə 10 noyabr bəyanatının 4-cü maddəsini xatırlatdı".

Şərhçi onu da qeyd edib ki, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra isə ermənilər sülhməramlıların müvəqqəti dislokasiya edildiyi ərazilərdən Azərbaycan ordusuna atəş açmağa başladılar: "Atəş səsləri yeni istiqamətlərdən eşidildi - ən azından rəsmi informasiyalar belə deyir. Ona görə də, müdafiə naziri Zakir Həsənov keçirdiyi müşavirədə belə hallara qarşı adekvat cavab verilməsi tapşırığını verdi. Müdafiə Nazirliyinin martın 9-da yaydığı məlumatda isə separatçı ünsürlərə dəqiq zərbələrin endirildiyi bildirildi. Müdafiə Nazirliyinin açıqlaması göstərir ki, ordumuz 10 noyabr Bəyanatından sonra Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində erməni separatçılarına ilk ağır zərbələr endirib. Müdafiə Nazirliyinin məlumatında axırıncı cümlə diqqət çəkir: "Azərbaycan Ordusu heç bir halda mülki infrastrukturu hədəfə almır, yalnız qanunsuz erməni silahlı dəstələrinin mövqelərinə dəqiq zərbələr endirir". Cümlə indiki zamanda bitsə də, böyük ehtimalla baş vermiş hadisəni təsvir edir. Yəni, təxribat olub, biz də dəqiq zərbələr endirməklə cavab vermişik. Bundan sonra olsa, yenə də analoji təcrübəyə müraciət edəcəyik. Təbii ki, dəqiq silahlar deyərkən nəzərə alaq ki, burada avtomatdan, pulemyotdan və digər atıcı silahlardan söhbət gedə bilməz. Hazırda hərbi əməliyyat şəraitinə dair aydın təsəvvürlər yoxdur, amma görünür ki, Azərbaycan öz bölmələrini döyüşə hazır vəziyyətində saxlayıb və növbəti təxribat olarsa, buna daha ağır cavab verəcək. Baş verənlər fonunda Rusiya sülhməramlılarınına bir hissəsinin Azərbaycan ərazilərindən çıxarıldığı informasiyalarına da diqqət yönəltmək lazımdır. Əgər iddialar doğrudursa, bu zaman düşünmək olar ki, Azərbaycanla-Rusiya arasında bu istiqamətdə razılıq mövcuddur".

***H.İsgəndərov***

# İlham Əliyevlə Ərdoğan görüşdülər



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.***

"Unikal" xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çankaya Köşkündə dövlətimizin başçısını qarşıladı.Prezidentlər birgə foto çəkdirdilər.

Görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulandı. Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edildi, Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparıldı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığa toxunuldu, bu xüsusda Cənub Qaz Dəhlizinin uğurla fəaliyyət göstərdiyi qeyd olundu, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edildi, həmçinin İğdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulandı.

Söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı.

Hərbi, hərbi texniki, o cümlədən hərbi təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirildi, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Görüşdə Ukraynadakı hadisələrlə bağlı fikir mübadiləsi aparıldı, Türkiyə və Azərbaycanın, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin tezliklə dayandırılması istiqamətindəki şəxsi səyləri yüksək qiymətləndirildi.

Sonda Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olundu və Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət etdi.

# Birinci vitse-prezident Emma Nikolson ilə görüşüb



***Birinci vitse-prezident Mehriban Əliyeva martın 10-da Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.***

"Unikal" xəbər verir ki, əvvəlcə birgə foto çəkdirilib.

Görüşdə Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin bu il qeyd olunduğu məmnunluqla vurğulanıb. Sonra ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib.

# "Azərişıq"ın sədri vətəndaşları qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov martın 10-da Mingəçevir və Yevlax rayonlarından olan vətəndaşları qəbul edib.***



"Unikal" xəbər verir ki, Qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin Mingəçevir şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram ifadə edilib. "Mərkəzi Aran" RETSİnin Mingəçevir şəhəri Heydər Əliyev prospektində yerləşən inzibati binasında baş tutan qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib. Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Bu il 955 ha ərazi minadan tam təmizlənib - MN

***Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri azad olunan ərazilərimizin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərini davam etdirir.***



Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, mühəndis-istehkam bölmələri tərəfindən nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan və qar örtüyündən təmizlənir, dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir. Həmçinin əkin sahələrinin minalardan təmizlənməsi üzrə fəaliyyətlər icra olunur.

Mina təmizlənmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib. Azad olunan ərazilərdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində 2022-ci ilin əvvəlindən bu günədək 955 hektardan artıq ərazi tam təmizlənib, 233 ədəd mina və partlamamış döyüş sursatı aşkar olunaraq məhv edilib.

Ümumilikdə işğaldan azad olunan ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 14448 hektardan artıq ərazi tam təmizlənib, 6092 ədəd piyada əleyhinə, 2159 ədəd tank əleyhinə və 9237 ədəd müxtəlif növdə partlamamış hərbi sursat aşkarlanaraq məhv edilib.

Azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkar olunaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.

# Mehdi Səlimzadə prokurorluq orqanları tərəfindən DİNDİRİLDİ

***Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Göyçay Rayon İcra Hakimiyyətində yoxlamalar davam etdirilir.***



"Unikal" xəbər verir ki, bir müddət əvvəl rayon icra hakimiyyətinin başçısı vəzifəsindən azad edilmiş Mehdi Səlimzadə artıq iş üzrə dindirilib.

Bundan başqa, icra hakimiyyətinin bəzi vəzifəli şəxslərinin də ifadələri alınıb.

Araşdırmalar davam etdirilir.

Qeyd edək ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Göyçay Rayon İcra Hakimiyyətində yoxlamalar bir müddət əvvəl başlanılıb. (apa.az)

# Hərbçilərimizə silahla hücum edəcək hər kəs hədəf olacaq - Peskov

***Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Ukrayna hakimiyyətinin sakinlərə silahdan istifadə ilə bağlı icazə verilməsini şərh edib.***



"Unikal" xəbər verir ki, o, rusiyalı hərbçilərə hücum edəcək silahlı şəxslərin hədəf olacağını bildirib.

"Hərbçilərimizə əlində silahla hücum edəcək hər kəs hədəf olacaq", - deyə o qeyd edib.

Xatırladaq ki, Ukraynada mülki şəxslərin silahdan istidadə edilməsinə icazə verilib.

# Ermənilər bu rayonlarımızı atəşə TUTDU



***Martın 10-u saat 09:50-dən 17:10-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Ağdam, Xocavənd və Füzuli rayonları istiqamətlərində yerləşən mövqeləri müxtəlif çaplı atıcı silahlardan istifadə edilməklə fasilələrlə atəşə tutulub.***

Bu barədə "Unikal"a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur. Hazırda bu istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Son sutkada koronavirusa yoluxanların sayı AÇIQLANDI




***Azərbaycanda bu gün koronavirus infeksiyasına 270 yeni yoluxma faktı qeydə alınıb, 564 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 17 nəfər COVID-19-dan dünyasını dəyişib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Dəmir yumruq" Qarabağdakı erməni silahlılarının başına dəyəcək

## Ziyafət Əsgərov: "Ermənistan sülh müqaviləsini imzalamaqda konkret iradə göstərməli, demarkasiya, delimitasiyanın həlli ilə məşğul olmalıdır"



***"Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri daim atəş açırlar və orada stabilliyi pozmağa çalışırlar. Bununla da belə bir fikir yaradırlar ki, guya, bu məsələ həll olunmayıb".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib. Komitə sədri bəyan edib ki, bu məsələ həll olunub:

"Yenidən bunu qızışdırıb belə bir təsəvvür yaratmağa çalışırlar ki, bu məsələ həll olunmalıdır. Bunu bir daha gündəmə gətirmək və manipulyasiya etmək mənasız vaxt itkisidir. Ermənilər bunu anlamalı və başa düşməlidirlər. Orada müyyən revanşist qüvvələr də var. Onlar da vəziyyətdən istifadə edirlər. Amma bir məsələni yaddan çıxarmasınlar ki, məsələ artıq həll olunub və hazırda Ermənistan sülh müqaviləsini imzalamaqda konkret iradə göstərməli, demarkasiya, delimitasiyanın həlli ilə məşğul olmalı, Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Əks halda "Dəmir yumruq" qüvvədədir və lazım olan vaxt atəş açan qanunsuz erməni birləşmələrinin başına dəyəcək. Bunu nə qədər tez dərk etsələr, onların xeyirlərinə olar".

Rusiya sülhməramlılarının fəaliyyətinə gəlincə, Z.Əsgərov bildirib ki, onlar 10 noyabr 2020-ci il bəyanatına görə orada fəaliyyət göstərirlər: "Doğrudur, deyə bilmərəm ki, onlarına fəaliyyətindən çox razıyıq. Amma sülhməramlıların fəaliyyəti bəyanatla tənzimlənir".

Erməni təxribatları ilə bağlı modern.az-a danışan hərbi analitik, "M5 müdafiə və strategiya" jurnalının Qafqaz və Orta Asiya üzrə nümayəndəsi Ruslan İmamquliyev bildirib ki, bu, həmişəki kimi, dırnaqarası Ermənistan respublikasının siyasi rəhbərliyinin təşəbbüsündən ziyadə, daha çox onların havadarlarının planları və iradəsinə müvafiq atılan addımlardır.

Onun sözlərinə görə, torpaqlarımızın işğaldan azad edilməsindən bəri regiondakı sürətli inkişaf onları narahat etməkdədir: "Ona görə də müxtəlif səbəblərlə bu inkişafa əngəl olmaq istəyirlər".

Ekspert Qarabağda xidmət aparan sülhməramlı qüvvələrin bir hissəsinin Ukraynaya getməsini istisna etməyib: "Sülhməramlıların Ukrayna döyüşlərində iştirakı mümkündür. Bu gün Ukraynada gedən proseslər də onu göstərir ki, Rusiyanın xüsusi təcrübə keçmiş birləşmələrə ehtiyacı var. Bununla yanaşı, həm də bizə məlumdur ki, sülhməramlı qüvvələr bizim ərazimizdə müvəqqəti yerləşiblər və nə vaxtsa tamamən ərazini tərk edəcəklər".

R.İmamquliyev yekun olaraq deyib ki, zərurət yaranarsa, ərazi bütövlüyümüz və təhlükəsizliyimiz adına daxili təhlükəsizlik, anti-terror əməliyyatlarının başladılması istisna edilmir.

***Anar Kəlbiyev***

# Azərbaycan Moldovaya xüsusi heyət göndərdi

***Ukraynadakı vəziyyətlə əlaqədar, bu ölkədən həmsərhəd ölkələrə üz tutmuş Azərbaycan Respublikası vətəndaşları və onların digər ölkələrin vətəndaşları olan ailə üzvlərinin Azərbaycana təxliyə olunması istiqamətində davamlı tədbirlər görülür.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, indiyə qədər Ruminiyanın Buxarest və Yassi, Polşanın Katoviçe şəhərlərinə 12 çarter reysi və çoxlu sayda avtobus reysləri təşkil olunub. Ümumilikdə, 5000 nəfərdən çox vətəndaşımız və onların ailə üzvləri Azərbaycana təxliyə olunub.



Ukraynadan Moldovaya digər həmsərhəd ölkələrlə müqayisədə dəfələrlə çox sayda vətəndaşımızın keçməsi ilə əlaqədar olaraq təxliyə işlərinin sistemli və nizamlı şəkildə həyata keçirilməsi, habelə onlara yerində dəstək göstərilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin 17 nəfər əməkdaşından ibarət heyət martın 7-də Kişineu şəhərinə ezam olunub.

Azərbaycan Respublikasının Moldova Respublikasındakı Səfirliyi və qeyd olunan dövlət orqanlarının nümayəndələrindən ibarət yaradılmış müvəqqəti əlaqələndirmə mərkəzi işə başlayıb.

Əlaqələndirmə mərkəzi tərəfindən Ukraynadan sərhədi keçərək Moldovanın müxtəlif yerlərində toplanmış vətəndaşlarımızın siyahıları tərtib olunur, onlarla Səfirlikdə və yerlərdə görüşlər keçirilir və ehtiyacları qiymətləndirilir, tibbi və digər yardımların göstərilməsi təmin olunur, vətənə qayıtmaq üçün sənədlər hazırlanır və çatışmayan səyahət sənədləri bərpa olunur, Azərbaycan dövləti tərəfindən göndərilən təxliyə çarter reysləri və avtobuslarla vətənə yola salınması təmin olunur.

Dünyada mövcud olan təcrübəyə uyğun olaraq təxliyə prosesində əsas prioritet uşaq, qadın, ahıl və əlillərə verilir.

Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə növbəti belə əlaqələndirmə qərargahı Polşada yaradılacaq. Bu məqsədlə martın 9-da qeyd olunan qurumların nümayəndələrindən ibarət heyət Polşanın Varşava və Katoviçe şəhərlərinə ezam olunub.

# Ukraynadan təxliyə edilən məktəblilər Azərbaycanda təhsilə cəlb olundu

***Ukraynadan mövcud vəziyyətlə əlaqədar təxliyə olunan vətəndaşlarımızın məktəbli övladları Azərbaycanda təhsilə cəlb olunublar.***

Respublikanın müxtəlif bölgələrinə öz yaxınlarının yaşadığı ərazilərə qayıdan azərbaycanlı ailələrin övladları artıq məktəbə gedirlər. Onlar üçün yaş və sinif kateqoriyasına uyğun dərslər keçirilir.

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı saytımıza açıqlamasında xəbəri təsdiqləyib. Deputat bildirib ki, Azərbaycan bununla bağlı operativ addım atan ilk ölkədir: "Ərazisində müharibə gedən Ukraynadan vətəndaşlarımızın təxliyəsi artıq rəsmi məlumat verildiyi kimi bilavasitə dövlət başçımızın nəzarəti altındadır. Onların təxliyəsi ardıcıl həyata keçirilir. Eyni zamanda ölkəmizə gələn azərbaycanlıların məktəb yaşlı övladlarının yerləşdikləri rayonlardakı müvafiq məktəblərdə təhsillərini davam etdirməsi üçün də addım atılıb. Məlumatıma görə, şagirdlərin təhsildən geri qalmaması üçün mümkün məsələlər həll edilir".

# Bu partiyalar MSK-ya hesabat verib - SİYAHI

***Mərkəzi Seçki Komissiyasına (MSK) maliyyə hesabatını təqdim edən partiyaların sayı 14-ə çatıb.***

Bakıvaxtı.az apa-ya istinadla xəbər verir ki, Azərbaycanda qeydiyyatda olan 58 partiyadan 14-ü 2021-ci il üzrə maliyyə hesabatlarını MSK-ya təqdim edib.

Həmin partiyalar aşağıdakılardır:

- Vətəndaş Həmrəyliyi Partiyası
- Azərbaycan Naminə Alyans Partiyası (ANAP)
- Azərbaycan Liberal Partiyası
- Azərbaycan Respublikaçılar Partiyası
- "Ədalət" Partiyası
- Demokratik İslahatlar Partiyası
- Azərbaycan Tərəqqi Partiyası
- Milli Dirçəliş Hərəkatı Partiyası
- Azərbaycan Demokratik Maarifçilik Partiyası
- Azərbaycan Xalq Partiyası
- Müasir Musavat Partiyası
- Böyük Quruluş Partiyası
- Vətəndaş və İnkişaf Partiyası
- Müstəqil Xalq Partiyası (MXP)

Qeyd edək ki, siyasi partiyaların MSK-ya 2021-ci il üzrə maliyyə hesabatı təqdim etmələri üçün nəzərdə tutulan müddət aprelin 1-də başa çatır. MSK aprelin 1-dək illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə təqdim etməyən siyasi partiyalar barədə Ədliyyə Nazirliyinə məlumat verməlidir.

# ASC-nin sədri Ağsuda vətəndaşlarla görüşdü

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Ağsu rayonunda vətəndaşlarla görüşüb.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov "Unikal"a bildirib ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2022-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov martın 10-da Ağsu şəhərində Ağsu, İsmayıllı, Şamaxı və Qobustan rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

Qəbuldan əvvəl Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov və Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov Ağsu Suvarma Sistemləri İdarəsinin inzibati binasında Ağsu, İsmayıllı, Şamaxı və Qobustan rayonlarından olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib.

Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, suvarma kanallarının beton üzlüyə alınması, yeni subartezian quyularının qazılması, sel sularına qarşı mühafizə bəndlərinin tikilməsi, nov kanallarının qurulması, həmçinin Cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək, göstərilən diqqət və qayğıya görə möhtərəm Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



## Ceyhun Bayramovun məktubu BMT-nin sənədi kimi yayılıb

***Xarici işlər naziri Ceyhun Bayramovun 4 000 itkin düşmüş azərbaycanlılarla bağlı Baş katib Antonio Quterreşə ünvanladığı məktubu BMT-nin sənədi kimi yayılıb.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin tviter hesabında məlumat verilib.

## İcra başçısı köməkçisini işdən çıxardı

***Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısının köməkçisi Əli Qurbanov vəzifəsindən azad edilib.***

”Unikal”ın əldə etdiyi məlumata görə, bununla bağlı icra başçısı Faiq Qürbətov əmr imzalayıb. Hələlik onun yerinə təyinat yoxdur.

***Murad İbrahimli***

## Çavuşoğlu ukraynalı həmkarı ilə görüşdü

***Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ukraynalı həmkarı Dmitro Kuleba arasında ikitərəfli görüş olub.***

”Unikal” xəbər verir ki, nazirlər Ankaranın Ukrayna və Rusiya arasında vasitəçiliyini müzakirə ediblər.

Qeyd edək ki, bu gün Antalyada Türkiyə, Rusiya və Ukrayna XİN başçıları Mövlud Çavuşoğlu, Sergey Lavrov və Dmitro Kuleba arasında üçtərəfli görüş olacaq.

## "Zəngəzur dəhlizi Azərbaycanı mərkəzə çevirəcək"

***”Zəngəzur dəhlizi Azərbaycanın qovşaq konsepsiyasına uyğun olaraq ticarət mərkəzinə çevrilməsinə imkan yaradacaq”.***

“Unikal” xəbər verir ki, bunu Bakı Limanın Baş direktoru Taleh Ziyadov Bakı Limanı və Avropa İttifaqının birgə təşkilatçılığı ilə baş tutan “Bakı Limanının imkanlarının genişləndirilməsinə dəstək: Faza 2” layihəsinin bağlanış mərasimində çıxışı zamanı deyib. O qeyd edib ki, Zəngəzur dəhlizi Yaxın Şərq və Aralıq dənizi arasında ən qısa dəhlizdir: ”Bu Şərq-Qərb dəhlizinə yol açacaq və yüklərin Aralıq dənizinə çatdırılmasında mühüm əhəmiyyət kəsb edəcək”.

T.Ziyadov qeyd edib ki, Azərbaycanın ticarət mərkəzinə çevrilməsi coğrafi mövqedə də vacibdir: ”Bakı Limanı burada öz rolunu oynayacaq və düşünürəm ki, inkişafın təməlini təşkil edəcək”.

# “Ermənilər yenidən gərginliyi artırmaq niyyətindədirlər”

## Tofiq Zülfüqarov: “Sülhməramlıların bu ərazilərdə fiziki baxımdan qalması Rusiya üçün həm texniki, həm də maliyyə cəhətdən çətin ola bilər”

***Keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov ”Unikal” qəzetinə müsahibə verib. O, Rusiya-Ukrayna müharibəsi, savaşın yaratdığı problemlər, gözlənilən nəticələr, buna paralel olaraq, Qarabağda baş verən proseslərlə bağlı fikirlərini bölüşüb.***

***-Tofiq müəllim, 15 gündür Rusiya-Ukrayna müharibəsi davam edir. Müharibənin bundan sonra nə qədər davam edəcəyini düşünürsüz?***

-Hərbi əməliyyatlar davam edir. Hiss olunur ki, Rusiya tərəfi qoyulan məqsədlərə nail olmayıb. Hərbi əməliyyatlar gözlənilən kimi nəticə vermir.Ona görə də hərbi əməliyyatlar uzun müddət davam edə bilər.Bunu nəzərə alaraq qeyd etmək lazımdır ki, indi əsas hadisələr Ukraynadan başqa elə Rusiyanın özündə də baş verə bilər. İqtisadi böhran bu ölkədə çox kəskin şəkildə inkişaf edir. Bəzi beynəlxalq reytinq agentlikləri Rusiya iqtisadiyyatı üçün defolt proqnozlaşdırır. Belə fikirlər səsləndirilir ki, ərzaq məhsullarının təchizatında problemlər ola bilər. Digər tərəfdən, Rusiyada ictimai rəyin dəyişməsi hiss olunur. Yəni, belə fikir var idi ki, əhalinin 70 faizi Vladimir Putinin hərbi əməliyyatlar fikrini dəstəkləyir. Hiss olunur ki, bu, həqiqətə oxşamır. Hərbi əməliyyatlar davam etdikcə, ictimai rəyin dəyişməsi qaçılmazdır. Digər tərəfdən, elitanın daxilində də narazılıq artmaqdadır. Həm biznes sahibləri, həm də hansısa vəzifəli şəxslər fikirləşir ki, bu böyük bir səhvdir. Elitanın daxilində Putinə qarşı hansısa hərəkətlərin olmasını istisna etmirəm.



***-Rusiya-Ukrayna münaqişəsi Üçüncü Dünya Müharibəsinin başlamasına səbəb ola bilərmi?***

-Hesab edirəm ki, bu məsələ ilk günlərdə olduğu kimi deyil. Amma ayrı-ayrı ölkələr Ukraynaya hərbi dəstəyi artıracaqlar. Artıq bu proses başlayıb və daha da genişlənəcək. Hərbi əməliyyatlar onu göstərdi ki, Ukrayna ordusu və xalqı heç də təslim olmaq niyyətində deyillər. Onlar bildirib ki, təslim olmayacaqlar. Bu siyasi iradə mövcuddursa, demək kömək də olacaq.

***-Müharibənin ilk günlərində Vladimir Putin Rusiya ordusuna nüvə qüvvələrini ”xüsusi hazırlıq” vəziyyətinə gətirməyi əmr etmişdi. Müharibənin gedişində nüvə silahından istifadə oluna bilərmi?***

-Doğrusu, buna inanmıram. Belə ehtimallar var idi ki, guya, taktiki nüvə silahından istifadə oluna bilər. Bu məsələdə soyuq müharibədə olan davranış qaydalarını yada salaq. Buna bənzər böhranlar olub. Fövqəldövlətlər bir-biri ilə birbaşa toqquşmaya girmirdilər. Qarşıdurma olur, bu o demək deyil ki, bir-birinə qarşı belə silahlardan istifadə edəcəklər.

***-Məlumdur ki, Rusiyaya tətbiq olunan sanksiyalar bu ölkə ilə ticarət əlaqəsi olan ölkələrə də təsir edəcək. Rusiya-Ukrayna müharibəsinin ölkəmiz üçün hansı iqtisadi təsirləri ola bilər?***

-Şübhəsiz ki, bu çətinliklər olacaq. Çünki Rusiyaya qarşı qoyulan sanksiyalar tək bu ölkə üçün deyil. Rusiya ilə iqtisadi, ticarət əlaqəsi olan ölkələrə də şamil oluna bilər. Bu məsələdə ehtiyatlı olmalıyıq. Təbii ki, sanksiyaların təsiri altına düşməyimiz istənilən deyil. İqtisadiyyatın böhrana düşməsi nəticəsində Rusiyadan ixrac üçün təklif olunan malların miqdarı azalacaq. Artıq taxılın qiyməti kəskin şəkildə artıb. Digər məhsulların qiyməti də artmaqdadır. Dünyada da böhran vəziyyəti yaranır. Belə ki, dünya iqtisadi böhranın ərəfəsindədir. Azərbaycan hökuməti də buna çevik şəkildə reaksiya verməlidir.

***-Rusiyaya tətbiq olunan sanksiyalar adıçəkilən ölkənin iqtisadiyyatı üçün böyük çətinliklər yaradıb. Bunun fonunda insanların etiraz etməsi gözlənilirmi?***

-Rusiyaya qarşı tətbiq edilən sanksiyaların əsas məqsədi də elə budur. Ölkə 2014-cü ildən sanksiya altındadır. Bu ölkəyə qarşı müxtəlif sanksiyalar tətbiq olunurdu. İndi isə bu sanksiyalar daha da genişlənib və müxtəlif sahələri əhatə edir. Burada əsas məqsəd ondan ibarətdir ki, iqtisadi və ardınca siyasi böhran olsun. Heç kimin şübhəsi yoxdur ki, məqsəd hakimiyyətin dəyişdirilməsidir.

***-Müharibənin olduğu hər iki ölkədə bizim soydaşlarımız yaşayır. Ukraynada olanların təxliyyəsi hazırda davam edir. Rusiyaya tətbiq olunan sanksiyalar bu ölkədə işləyən vətəndaşlarımız üçün çətinliklər yaradacaq. Hər iki ölkədə yaşayan soydaşlarımızın qayıtmasını nəzərə alsaq, hökumət tərəfindən hansı addımlar atılmalıdır?***

-Bu gözlənilən prosesdir. Başa düşməliyik ki, onların bir hissəsi Azərbaycan vətəndaşı olaraq qayıdırlar. Digər hissəsi isə soydaşlarımız da olsa, Azərbaycan vətəndaşları deyillər. Hüquqi baxımdan münasibət də fərqli olacaq. Buna görə hesab edirəm ki, işsizliyin səviyyəsi də arta bilər.

***-Rusiya ilə Ukrayna arasında bir neçə görüş keçirilib. Necə düşünürsüz, bu görüşlərdə hansısa razılıq əldə edilə bilərmi?***

-Problemlərin olması göz qabağındadır. İlkin olaraq texniki razılaşmalar əldə olunmalıdır. Bura atəşin dayandırılması, atəşkəsə əməl olunmasına texniki nəzarət, müşahidəçilər və s. aiddir. Ondan sonra hansısa siyasi qərarlar əldə oluna bilər. İndiki mərhələdə hansısa ciddi siyasi qərarların olmasını gözləmirəm. Hələ ki, birinci qeyd etdiyim məsələlər öz həllini tapmalıdır.

***-Münaqişə Rusiyanın Cənubi Qafqazdakı, Suriyadakı və digər ərazilərdəki mövqeyinə necə təsir göstərəcək?***

-Bu, imkanların azalmasına gətirib çıxaracaq. Bunu təkcə Cənubi Qafqaza deyil, digər bölgələrə də aid etmək olar. Suriyada, bəzi Afrika ölkələrində hərbi proseslərin azalmasına da gətirib çıxaracaq. Azərbaycan bu mərhələyə hazır olmalıdır. Həm də hərbi baxımdan.

***-Son günlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri ordumuzun müxtəlif istiqamətlərdə yerləşən mövqelərini atıcı silahlardan atəşə tutur. Bu, həmin istiqamətlərdə vəziyyəti yenidən gərginləşdirə bilərmi?***

-Ermənilər açıq şəkildə buna əl atırlar. Bəlkə də nəyəsə nail olmaq istəyirlər. Onlar başa düşməlidirlər ki, indi Rusiyanın imkanları xeyli azalıb. Sülhməramlıların bu ərazilərdə fiziki baxımdan qalması Rusiya üçün həm texniki, həm də maliyyə cəhətdən çətin ola bilər. Bu missiyanın ya dayandırılması, ya da sayının azaldılması gözlənilən məsələdir. Ermənilər bundan ehtiyat edərək gərginliyi artırmaq niyyətindədirlər.

***-10 noyabr üçtərəfli bəyənatında nəzərdə tutulan məsələlərin, Zəngəzur dəhlizinin açılması və digər proseslərin sürətlənməsi gözlənilirmi?***

-Rusiyada olan böhran ona gətirib çıxaracaq ki, Ermənistan qərbyönlü siyasət həyata keçirsin. Onlar çalışırlar ki, imkan dairəsində Qarabağ mövzusundan uzaqlaşsınlar. Hesab edirəm ki, onlardan istənilən addımları gözləmək olar. Ermənistan tərəfi başa düşür ki, Rusiya zəifləyir, Qərbin bu bölgəyə gəlməsi isə vaxt aparacaq. Bu baxımdan, Ermənistan “baxımsızlıq” zonası olacaq. Onlar bu məsələdən narahatdırlar, özlərini sığortalamaq üçün istəyirlər danışıqları siyasi baxımdan daha ciddi şəkildə aparb hansısa nəticələrə nail ola bilsinlər.

***Anar Kəlbiyev***

# Şimaldan iqtisadi böhranın soyuğu gəlir...

## Natiq Cəfərli: "Birbaşa və dolayısı ilə 30-35 mln. Rusiya vətəndaşının gəlirlərinin kəskin azalması gözlənilir"

***Ukraynaya hücumdan sonra əksər ölkələr, xüsusən də Avropa dövlətləri, eləcə də ABŞ Rusiyaya qarşı sanksiyalar tətbiq etməyə başlayıb. Artıq bu sanksiyaların ciddi nəticələrinin olduğu da ortadadır.***

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən ReAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli deyib ki, ilkin hesablamalara görə, Rusiyadan gedən, bu ölkədə fəaliyyətini dayandıran şirkətlərdə 4,5 mln. Rusiya vətəndaşı çalışırdı, amma həmin şirkətlərlə subkontrakt və digər müqavilələrlə çalışan rusiyalılar da var - toplamda 11-12 mln. nəfər işsiz, deməli gəlirsiz qala bilər. Onun sözlərinə görə, daha bir məsələ odur ki, 5 mln.-a yaxın Rusiya vətəndaşı daşınmaz əmlakın biznes seqmentində icarələrdən pul qazanırdı -indi isə böyük alış-veriş mərkəzləri, dükanlar, ofislər boş qalacaq, bunun da təsiri olacaq: "Digər tərəfdən, 15 mln.-dan çox rusiyalı müxtəlif şəhərlərdə öz mənzil və evlərini xarici vətəndaşlara icarəyə verməklə qazanc əldə edirdilər - xaricilərin getməsi, yaxın ətraf ölkələrdən Rusiyada yaşayıb pul qazanan miqrantların öz ölkələrinə dönməsi riski onların da gəlirsiz qalmasına səbəb olacaq. Yəni, birbaşa və dolayısı ilə 30-35 mln. Rusiya vətəndaşının gəlirlərinin kəskin azalması gözlənilir. Rusiya Mərkəzi Bankı ölkədə dollar satışını sentyabr ayına qədər qadağan eləd - bu isə "qara bazarın" yaranmasına səbəb olacaq - SSRİ kimi monsrt belə valyuta əməliyyatlarının "qara bazarına" mane ola bilməmişdi, korrupsiyada boğulan Rusiya isə bunu heç edə bilməz. Bundan əlavə, Rusiyada mal-məhsul qıtlığı da yaranır, piştaxtalar boş qalır, bu isə yenə SSRİ dövründə olan kimi "alverçilərin", piştaxta altından satışların yaranmasına səbəb olacaq, bir müddət sonra isə Rusiyada ərzaq talonları da dövriyyəyə buraxıla bilər: "Yəni, Putin və ona inanan milyonlarla rusiyalıların arzusu yerinə yetir - SSRİ-ni ayrıca bir ölkədə, Rusiyada tam bərpa edirlər, nə deyim, nə tökərsən aşına, o da çıxar qaşığına".

İqtisadçı onu da nəzərə çatdırıb ki, Rusiya Qərbə günlük 4,3-4,8 mln. barel arası neft ixrac edir, bunun cəmi 650-700 min barelini ABŞ-a ixrac edir ki, bu da Amerikanın xaricdən aldığı neftin 8%-i, istehlak etdiyi neftin isə 3%-ni təşkil edir - yəni, ABŞ Rusiya neftindən asanlıqla imtina edə bilər: "Yeri gəlmişkən, bu gün ABŞ-la Venesuela arasında danışıqlar baş tutub, rəsmi Karakas da sanksiyalar altındadır, neftini, əsasən, Çinə satırdı. Venesuelanın keçən il günlük neft hasilatı cəmi 796 min, potensialı isə günə 2,5-3 mln. bareldir - deməli, Madura Putinə "atan", ABŞ-la anlaşan kimi bazara cəmi 3 aya əlavə 1,5-2 mln. barel neft çıxaracaq ki, bu da Şimali Amerika bazarını sabitləşdirəcək. Qaldı Avropa, AB ölkələri Rusiya neftindən daha çox asılıdır, əvəzləmək üçün yeni böyük hasilatçı ölkə lazımdır, bu ölkə də İran olacaq. Bu gün-sabah Tehran da Moskvaya "atacaq", Qərb ilə anlaşacaq, İranın günlük hasilat potensialı 4,5-5 mln. bareldir, bu da AB-yə Rusiya neftini əvəz etməyə bəs edir. İran qaz məsələsində də güclü potensialı olan ölkədir - AB Rusiya qazından imtina edə bilməz, amma oyuna İran girsə, bu mümkündür.

Qaldı Kremlin əsas güvəndiyi ölkə - Çin, o da bu gün Fransa və Almaniya ilə görüşüb, sülhə çağırış edib, AB ilə yeni sazişlərə hazır olduğunu deyib.

Putinin Ukraynada "blitzkrieg"-i alınmadı, ölkəni tez diz üstə qoya bilmədi, Kremlin gücü haqqında mif dağıldıqca, ərtafında heç kəs qalmayacaq, artıq Çin də ancaq öz maraqları çərçivəsində davranacaq - əli hər yerdən üzülən Rusiyadan su qiymətinə enerji və təbii resurslar alacaq. Belə görünür ki, Qərb üçün artıq prioritet Rusiyadır, "Ayının" dərisini bölmək üçün Çin də bu koalisiyada yer almağa başladı-başlayacaq".



N.Cəfərli hesab edir ki, Rusiyanın Ukraynaya təcavüzü, işğal cəhdinin vacib nəticəsi Ukraynanın, bu ölkəni, xalqını Moskva tərəfindən birdəfəlik itirilməsi ilə nəticələnəcək. Onun qənaətincə, Ukrayna xalqı bu gün tək döyüş meydanında öz seçimini etmir, həm də "ayaqları" ilə də öz yolunu, yönümünü seçir. Ukraynanın şərqindən, Xarkovdan, Sumıdan ölkənin Qərbinə, Lvov şəhərinə 1033 km, Avropa Birliyinin sərhəddinə isə 1100 km-dən də çox məsafə var, həmin şəhərlərdən, məsələn, Xarkovdan Rusiya sərhədinə yol isə cəmi 38 km-dir, hətta piyada da getmək olar: "Amma Xarkovlular 1000 km-dən çox məsafəni zülmlə, bombalar və təhlükələr altında qət edib Lvova, Avropa Birliyinə üz tuturlar. Ukraynanın şərqini 4 mln. nəfər Ukrayna vətəndaşı artıq tərk edib, onlardan 1,5 mln. nəfərdən çoxu AB ölkələrinə keçib (ümumən 2 mln. ukraynalılar AB ölkələrinə keçib, onlardan 1,5 mln. dan çoxu məhz Xarkov və şərqi Ukraynadandır), yerdə qalanlar da Ukraynanın qərbində, Moskvanın "benderlərin məkanı" saydığı şəhərlərə köçüb. Yəni, bu gün Ukrayna əhalisi əsl "referendum" keçirir, öz yolunu-izini seçir, məhz bu Kremli qəzəbləndirir - planları bu idi ki, Rusiya ordusu şərqi Ukraynaya daxil olan kimi əhalinin böyük əksəriyyəti onları xoş qarşılayacaq, müharibədən qaçan yüzminlərlə ukraynalılar isə Rusiyaya gedəcək, Kreml də bundan istifadə edib şou düzəldəcək, dünyaya, "ukraynalılar "faşistlərdən", "benderlərdən" qaçıb Rusiyay sığınır", mesajı verəcəkdilər. Alınmadı, Ukrayna xalqı Rusiyanı seçmədi, bu gün Xarkovun, Sumının vəhşicəsinə bombalanması da məhz bunun qəzəbidir".

***Z.Məmmədli***

# Rafael Cəbrayılovun məhkəməsi ilə bağlı DİN-ə müraciət edildi



***Həbsdə vəfat edən sabiq deputat Rafael Cəbrayılovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal" xəbər verir ki, bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrlik etdiyi prosesdə bildirilib ki, zərərçəkmiş qismində tanınmış Təranə Fətəliyeva və Vidadi Məmmədova dəfələrlə çağırış göndərilsə də, məhkəməyə gəlmirlər.

Vəkil Kamandar Nəsibov da məhkəmə prosesinin səbəbsiz uzadılmasına etiraz edib. Vəkil zərərçəkmiş şəxslərin bu addımını məhkəməyə hörmətsizlik kimi qiymətləndirib.

Məhkəmə barələrində məcburi gətirilmə qərarı olan hər iki şəxsin prosesdə iştiraklarının təmin olunması ilə bağlı Daxili İşlər Nazirliyinə (DİN) müraciət göndərilməsi ilə bağlı qərar qəbul edib.

Proses martın 31-dək təxirə salınıb.

Xatırladaq ki, Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi tərəfindən saxlanılan Milli Məclisin III, IV və V çağırışları üzrə deputatı olmuş Cəbrayılov Rafael Kamil oğlu bir neçə nəfərə qarşı külli miqdarda dələduzluqda təqsirli bilinib.

İş üzrə toplanmış sübutlar əsasında Rafael Cəbrayılova Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq- külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2 (vəzifə səlahiyyətlərindən suiistifadə- ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham verilib.

R.Cəbrayılov məhkəmə istintaqı gedişində ötən il sentyabrın 30-da koronavirusdan müalicə olunduğu "Yeni Klinika"da vəfat edib.

# Elşad Abdullayevin bacısı oğlu Araz Mürsəliyev axtarışa verildi



***Rusiyada fəaliyyət göstərən diaspor rəhbəri Araz Mürsəliyev axtarışa verilib. Bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) saytında məlumat yerləşdirilib.***

Bildirilib ki, Mürsəliyev Araz Oqtay oğlu Cinayət Məcəlləsinin 311.3.2 (Vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma)və 322-ci (özbaşınalıq) maddələri ilə təqsirləndirilir. Onun barəsində məhkəmə qərarı ilə axtarış elan edilib.

Qeyd edək ki, Araz Mürsəliyev Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) Moskva vilayəti üzrə katibi olub. O, 2015-ci ildə Rusiya Dövlət Dumasının Milli Məsələlər üzrə Komitəsinin Ekspertlər Şurasının üzvü seçilib.

Xatırladaq ki, Araz Mürsəliyev Azərbaycan Beynəlxalq Universitetinin rektoru Elşad Abdullayevin bacısı oğludur.

# Dövlət Xidməti "Azərbaycan Dəmir Yolları" barədə iş qaldırıb



***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən dəmir yolu vasitəsilə xidmətlərin göstərilməsi sahəsində antiinhisar qanunvericiliyinin tələblərinə əməl olunması vəziyyəti üzrə araşdırmalar aparılıb.***

Bu barədə "Unikal"a qurumdan bildirilib. Məlumata görə, araşdırmalar nəticəsində vaqonların (əsas vəsaitlərin) icarəyə verilməsi, dəmir yolu daşımaları, habelə tarif və güzəştlərin tətbiqi ilə bağlı rəqabətin pozulması əlamətləri üzrə antiinhisar qanunvericiliyinə əsasən "Azərbaycan Dəmir Yolları" QSC barədə iş qaldırılıb.

# Hərbi hissələrdə təlim-metodiki məşğələlər keçirilib



***Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi hissələrdə komandir heyəti ilə ideoloji iş və mənəvi-psixoloji təminatın, eləcə də hüquq qaydaları və hərbi intizamın möhkəmləndirilməsi sahəsində işin səmərəliliyinin artırılması məqsədilə təlim-metodiki məşğələlər keçirilib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Bəkir Orucov Azərbaycan Ordusunda nizam-intizamın yüksəldilməsi sahəsində həyata keçirilən islahatlardan və bu sahədə ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin üzərinə düşən vəzifələrdən danışıb.

Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və baş verə biləcək neqativ halların qarşısının alınması məqsədilə profilaktik tədbirlərin effektivliyinin artırılması üçün metodiki tövsiyələr verilib. Keçirilən məşğələlərdə və aparılan müzakirələrdə komandir heyətinə ideoloji iş və mənəvi-psixoloji təminat sahəsində rəhbər sənədlərin hazırlanması, həmçinin onların icrası ilə bağlı nəzəri və praktiki köməklik göstərilib.

Təlim-metodiki məşğələlərdə Müdafiə Nazirliyinin müxtəlif idarə və hərbi hissələrinin zabitləri Azərbaycan Ordusunun döyüş qabiliyyətinə təsir edən mövzular ətrafında fikir mübadiləsi aparıblar.

# Bəxtiyar Hacıyevin polisə çağırılma səbəbi açıqlandı



***Daxili İşlər Nazirliyi (DİN) Bəxtiyar Hacıyevin polisə çağırılmasının səbəbini açıqlayıb.***

DİN Mətbuat Xidmətinin əməkdaşı Zeyni Hüseynov azvision.az-a bildirib ki, keçən ilin iyul ayında Bakı şəhər sakinləri Bəxtiyar Hacıyev və tanışı Ülviyyə Muradova qarışıqlı ərizə ilə Yasamal Rayon Polis idarəsinə şikayət etmişdilər. Onların müraciətləri araşdırıldı və müəyyən edildi ki, B.Hacıyev pişiyinin Ü.Muradovanın pişiyi ilə cütləşməsindən doğulacaq balalardan birini Ü.Muradovaya verməyi vəd etsə də, sonradan o vədinə əməl etmədiyindən tərəflər arasında narazılıq yaranmışdır. Bundan sonra Ü.Muradova sosial şəbəkədə bu məsələ ilə əlaqədar paylaşımlar etdiyindən B.Hacıyev onun evinə gedərək mübahisə yaratmışdır.

Tərəflərin şikayətləri araşdırılmış və əməldə cinayət tərkibinin olmadığı müəyyən edildiyindən cinayət işinin başlanması rədd edilmişdir. Eyni zamanda onlara şərəf və ləyaqətin alçaldılması, işgüzar nüfuzu ləkələyən yalan məlumatların təkzib olunması, vurulmuş zərərin ödənilməsi və əmlak tələbi ilə bağlı mülki qaydada məhkəməyə müraciət etmək hüquqları izah olunmuşdur.

Bundan sonra Bəxtiyar Hacıyev xüsusi ittiham qaydasında Ülviyyə Muradova barəsində Yasamal Rayon Məhkəməsinə şikayət ərizəsi ilə müraciət etdi. Müraciətlə əlaqədar ötən il oktyabr ayının 15-də keçirilən məhkəmə iclasında fasilə zamanı B.Hacıyev Ü.Muradovanın ünvanına qeyri-etik ifadələr səsləndirərək qəsdən münaqişə yaratmış, ictimai qaydanı və məhkəmənin normal iş rejimini kobud surətdə pozmuş, cəmiyyətə açıqca hörmətsizlik ifadə edərək Ü.Muradovaya qarşı zor tətbiq edib sağlamlığına yüngül zərər vurmaqla qərəzli xuliqanlıq etmişdir.

Fakta görə Yasamal RPİ-də CM-nin xuliqanlıq maddəsi ilə cinayət işi başlanılmış və hazırda istintaq davam etdirilir, tamamlandıqdan sonra cinayət işi baxılması üçün məhkəməyə göndəriləcək.

Bütün bunlara baxmayaraq Ülviyyə Muradova və Bəxtiyar Hacıyev bu proseslərdən narazı qalaraq bir-birilərinin həbs edilməsini tələb edirlər. Hər dəfə də onlara izah edilir ki, istintaq başa çatdıqdan sonra məsələyə məhkəmədə hüquqi qiymət veriləcək.

# Rusiya ordusu ədalət gətirir, yoxsa....

## Elxan Şahinoğlu: "Biz Rusiya hərb maşınının hansı "mərhəmət hissinə" malik olduğunu 20 yanvarda, Xocalıda görmüşük"

***Rusiya ilə Ukrayna arasında davam edən müharibə bütün dünyanı ciddi narahat etməkdədir. Tərəflər arasında danışıqlar prosesi davam etsə də, silahlı toqquşmalara ara verilmir.***

"Rusiya ilə Ukrayna arasında 10 raund görüş keçirilsə də, indiki şərtlər daxilində real nəticə olmayacaq. Çünki Kreml Ukraynanın əllərini qaldırıb təslim olmasını - Krım və Donbasın "müstəqilliklərini" tanımasını, silahsızlaşdırılmasını və neytral statusunu elan etməsini tələb edir. Danışıqlar davam etdiyi müddətdə Rusiyanın işğalçı ordusu Kiyevə yaxın şəhərləri bombalayırdı. Tərəflərin ikinci görüşündən sonra mülki əhalinin çıxması üçün şəhərlərdə koridorların açılması nəzərdə tutlmuşdu. Kreml bütün koridorların Rusiya ərazisinə uzanmasını istəyib. Evi dağılan, doğmasını itirən, işsiz qalan ukraynalı hansı məntiqlə işğalçı ölkənin ərazisinə keçməlidir? Ukraynanın şəhərlərində küçə döyüşləri gedir, işğalçılar tanımadıqları ərazidə pusquya düşürlər. Təslim olan rusiyalı hərbçilərin sayı o qədər artıb ki, Ukraynada onlar üçün bir neçə düşərgə salınması lazım olacaq". Bu fikirləri "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu səsləndirib.



Politoloq Rusiya tərəfinin Ukraynaya göndərdiyi hərbi kontingentin tərkibi ilə bağlı bəyanatına da toxunub: "Rusiya Prezidenti Vladimir Putin dünən bildirmişdi ki, Ukraynaya yalnız peşəkar hərbçilər göndərilib, guya orada çağırışçılar yoxdur. Üstündən 24 saat keçdikdən sonra Kreml sahibi etiraf etdi ki, Ukraynada çağırışçılar olub. Bunu niyə etiraf edib? Səbəbi bəllidir. Çünki həmin gənc çağırışçılar Ukrayna ordusuna əsir düşüblər, ağlayaraq valideynlərinə zəng ediblər və bu görüntülər internetdə yayılıb. Putin də anlayıb ki, bunu gizlətmək mümkün olmayacaq. Kreml sahibi vəziyyətdən çıxış yolu kimi çağırışçıların Ukraynaya göndərilməsinə görə Müdafiə Nazirliyindəki məsul şəxsləri cəzalandırmağı tapşırıb. Bu mənə nəyi xatırlatdı? Deməli, 1990-cı illərin sonlarında Rusiya hərbçiləri Çeçenistanı bombardman edir, hər yeri dağıdır və qətliamın miqyasını gizlətməyə çalışırdılar. Ancaq bir hadisə Putini o qədər şoka saldı ki, bunu gizlədə bilməyəcəyini anladı. Budanov adlı rusiyalı yüksək rütbəli zabit içkili vəziyyətdə yoldan keçən çeçen qızın qərargahına gətirilməsini əmr edərək onu zorlamış və sonra öldürmüşdü. Budanov həbs olundu. Putin bununla demək istədi ki, qəddar olduğu qədər guya mərhəmət hissi də var. Ancaq günahsız çeçen qızını qəddarcasına öldürən həmin Budanov bir müddətdən sonra amnistiya edildi. Doğrudur, Budanov azadlıqda çox yaşaya bilmədi, çeçen qızın intiqamı alındı və onu küçədə öldürdülər. Biz Rusiya hərb maşınının hansı "mərhəmət hissinə" malik olduğunu 20 yanvarda, Xocalıda görmüşük. Ona görə Putinin "Ukraynada xüsusi əməliyyat keçirilir" nağılına kimsə inanmaz".

E.Şahinoğlu başqa bir məqama da toxunub. O vurğulayıb ki, dünyanın diqqəti Rusiyanın Ukraynaya qarşı işğalına və davam edən müharibəyə yönəlsə də, Vaşinqton-Pekin qarşıdurması da səngiməyib. O xatırladıb ki, ABŞ-ın ticarət naziri Cina Raymondo deyib ki, Çin şirkətləri Rusiya əleyhinə sanksiyalara qoşulmasalar, onlara qarşı da sanksiyalar tətbiq olunacaq: "Çinin Şanxay şəhərindəki nəhəng SMIC şirkəti Qərb texnologiyaları əsasında proqram təminatı üçün yarımkeçiricilər istehsal edir. SMIC Rusiyaya məhsul ixrac edərsə ABŞ həmin şirkəti proqram təminatından məhrum edəcək. Amerikanın ticarət nazirinin sözlərinə görə, ölkəsi Çinin həmin şirkəti ilə əməkdaşlığı dayandırsa Çin çip istehsal edə bilməyəcək. Bu Çinə böyük zərbə olar. Beləliklə, Vaşinqton çalışır ki, Pekin Ukrayna məsələsində "neytral" siyasətdən əl çəksin. Avropa İttifaqının xarici siyasət məsələləri üzrə komissarı Jozep Borrel də bir müddət əvvəl Çinin xarici işlər naziri Van İnə müraciət edərək müharibənin dayandırılması məqsədilə Pekinin Kremlə təsir etməsini istəyir. Buna baxmayaraq, Pekinin mövqeyində dəyişiklik yoxdur. Əlbəttə, Pekin müharibənin dayandırılmasını istəyir. Çünki müharibənin davam etməsi Çin üçün geosiyasi və geoiqtisadi risqlər yaradır. Birincisi, Çinin Ukrayna ilə iqtisadi əməkdaşlığı donub, Çin Ukraynadan kənd təsərrüfatı məhsulları idxal edə bilmir. İkincisi, Qərbin sanksiyaları səbəbindən Rusiya iqtisadiyyatının zəifləməsi nəticəsində Çinin bu böyük bazarda gəlirləri azalacaq. Çünki Rusiya vətəndaşlarının alıcılıq qabiliyyəti getdikcə azalacaq. Üçüncüsü, müharibənin davam etməsi Çinin "bir kəmər, bir yol" layihəsinə təhlükə yaradır. Dördüncüsü, Amerika Ukrayna böhranı fonunda Çinin müxtəlif şirkətlərinə qarşı sanksiya siyasətini genişləndirə bilər ki, bu da Pekinə əlavə problemlər yaradacaq".

***H.İsgəndərov***

# İki sabiq nazirlə "Aqrolizinq"in keçmiş rəhbəri təlaş içində...

## Bir ASC-dəki yüz milyonlarla manatın qaranlıq taleyi: İsmət Abbasovla Heydər Əsədovun nazir olduğu dövrün "korrupsiya dosyesi" rəfdən endirilir

***İki il öncə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti Kənd Təsərrüfatı Nazirliyi yanında “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti ilə bağlı maraqlı məlumat açıqladı. Məlumatdan aydın oldu ki, ASC-nin 2017-ci ilin yanvar ayından 2019-cu ilin sentyabr ayına qədərki fəaliyyət dövrünün yoxlanması zamanı ciddi nöqsanlar aşkarlanıb.***

Yoxlama nəticəsində ciddi nöqsanlara yol verildiyi, 2006-2019-cu illərdə lizinqə verilmiş kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq və damazlıq heyvanlar üzrə gecikdirilmiş borcların yarandığı, kənd təsərrüfatı məhsulları istehsalçılarının sifarişləri əsasında alınmış texnoloji avadanlıqların dəyərinin sifarişçilər tərəfindən ödənilmədiyindən anbarlarda saxlanaraq təyinatı üzrə istifadə edilmədiyi aşkar edilib.

O da bildirildi ki, Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən aparılan yoxlamalar zamanı aşkar olunan bəzi nöqsanların ciddiliyi nəzərə alınaraq “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti üzrə əvvəlki illərdə texnoloji avadanlıqların və damazlıq heyvanların alınması üçün köçürülmüş 11259,4 min manat məbləğində vəsaitin müqabilində malları təhvil verməyən və ya vəsaiti geri qaytarmayan şirkətlər barədə materiallar hüquqi qiymət verilməsi üçün müvafiq hüquq-mühafizə orqanlarına göndərilib.

Bu yoxlamalar barədə açıqlama verən sabiq kənd təsərrüfatı naziri Heydər Əsədov iddia edirdi ki, söhbət korrupsiya və mənimsəmədən getmir: ”Aqrolizinq” ASC-də aparılan yoxlamaların materialları borcların 2006-cı ildən bu günə qədər yarandığını göstərir. Ancaq söhbət korrupsiya və mənimsəmə barədə deyil, fermerlərin və şirkətlərin ASC-dən aldıqları borcların qaytarılması ilə bağlıdır. Bu borcların yaranmasına gəlincə, çalışdığım dövrdə texnoloji avadanlıqlar, ümumiyyətlə, alınmayıb. Texnoloji avadanlıqlar üzrə bütün borclar əvvəlki vaxtda verilib. Bəli, nazirliyə rəhbərlik etdiyim müddətdə heyvanların alınması ilə əlaqədar müəyyən borclar yaranmışdı. Onların geri qayıtması normal bir prosedurdur. Vaxtı keçmiş borcların qaytarılmasını sürətləndirməyə gəlincə, mən özüm bu məsələ ilə bağlı iki dəfə prokurorluğa müraciət etdim. Bütün müvafiq sənədlər var və Maliyyə Nazirliyi bunu təsdiqləyəcək. Müraciətlərimdə bu kimi borcluların ödənişləri gecikdirdiyini qeyd etdim”.



Bununla da H.Əsədov “Aqrolizinq”də aşkarlanan pozuntuları, faktiki olaraq, özündən əvvəlki kənd təsərrüfatı nazirinin - İsmət Abbasovun ”ayağına” yazmışdı. Qeyd edək ki, İ.Abbasov 2004-2013-cü illərdə kənd təsərrüfatı naziri, 2013-2018-ci illərdə isə baş nazirin müavini işləyib. Düzdür, Abbasovun qısa vaxtda böyük sərvətə sahib olması “Aqrolizinq” ASC-nin 2009-cu ildə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilməsindən sonra başlamışdı. Çünki bu ASC uzun illər boyu korrupsiya, dövlət vəsaitlərinin talandığı əsas qurumlardan birinə çevrilmiş, nəticədə eks-nazir də misilsiz var-dövlətə yiyələnmişdi. İnsafən, 2013-cü ilin oktyabrında kənd təsərrüfatı naziri dəyişdikdən, bu posta Heydər Əsədov gəldikdən sonra “Aqrolizinq”də Hesablama Palatası qanunsuzluqlar aşkarlamış, qurumda büdcə vəsaitlərindən qanunsuz istifadə, büdcə öhdəliklərinin icra edilməməsi, iş həcmlərinin artırılması, borcların uçotdan yayındırılması və digər maliyyə pozuntularına yol verildiyi nəzərə alınaraq, nəzarət tədbiri üzrə yoxlama materialları Baş Prokurorluğa göndərilmişdi. Yəni Əsədov müəyyən qədər haqlı idi.

Elə bundan az sonra “Aqrolizinq” ASC-nin sədri Əli Bayramovun öz ərizəsi ilə işdən getməsi də çox şeydən xəbər verirdi. Üstəlik, İsmət Abbasovun çox keçmədən Bayramovu yüksək vəzifəyə - 1 saylı Şərab Zavodunun İdarə Heyətinin sədri təyin etdirməsi də onların arasındakı maraqlı bağlardan xəbər verirdi. Məsələ burasındadır ki, həmin zavod mətbuatda məhz İ.Abbasovun zavodu kimi tanınırdı.

Bununla belə, qeyd etmək yerinə düşər ki, ”Aqrolizinq”də korrupsiya halları Heydər Əsədovun zamanında da davam eləmişdi. Məsələn, həmin vaxt “Aqrolizinq” ASC-nin lizinq yolu ilə fermerlərə satdığı texnikaların qiymətində kəskin bahalaşma baş vermiş, bu isə həmin texnikaların məhz Heydər müəllimin qardaşının şirkətlərindən alınması ilə izah edilmişdi. Əsədov bu və ya digər qanunsuzluq faktları ilə bağlı əsaslı bir açıqlama verməmişdi. Ümumiyyətlə, onun dövründə ”Aqrolizinq”də düzəməlli auditin aparılmaması da diqqət çəkirdi. Burada başlıca rol oynayan faktor da aydın idi: sabiq nazir daha əvvəl Hesablama Palatasının rəhbəri olmuş və həmin qurum üzərində təsir imkanlarını uzun müddət qorumuşdu. Elə ona görə də köklü yoxlamalar adıçəkilən ASC-dən yan keçmişdi.

Yeni iddialara görə, ”Aqrolizinq”də İsmət Abbasov və Heydər Əsədovun dövrünün təftişinə başlana bilər. Belə ki, ortada təxminən 10 il ərzində yüz milyonlarla manatın düzgün xərclənmədiyinə dair ciddi şübhələrə yol açan faktlar var; həmin faktlar həm Hesablama Palatasının, həm də Dövlət Maliyyə Nəzarəti Xidmətinin yoxlamaları ilə təsdiqini tapıb. Lakin bu korrupsiya faktlarına görə kimsənin indiyədək hüquqi məsuliyyətə cəlb olunmaması ağlasığmazdır, elə ona görə də istintaqın başlaması real hesab olunur...

***Sənan Mirzə***

# "Qarabağ müharibəsi Ordumuzun gücünü göstərdi" - Çingiz Qənizadə

***Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistan üzərindəki tarixi Qələbəmiz düşmənin 30 illik işğalçı siyasətinə son qoydu. Bu Zəfər həm də Azərbaycan Ordusunun dünyada ən güclülərdən biri olduğunu təsdiqlədi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında rəşadətli Ordumuza “Dəmir yumruq” əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvələri isə sözün həqiqi mənasında, mövqeyini qoyub qaçırdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır.***

Bu fikirləri ”Unikal”a Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə söyləyib.



Hüquq müdafiəçisi bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü ilə Bakının mərkəzində yaradılmış Hərbi Qənimətlər Parkı Ordumuzun qəhrəmanlığını əks etdirən ən nadir nümunələrdəndir. Bu park, eyni zamanda, düşmənə göz dağıdır. Parkın ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi: “Hərbi Qənimətlər Parkı qazanılan tarixi Zəfərin və Silahlı Qüvvələrimizin qəhrəmanlığının nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar ölkəmizə Zəfər qazandıran döyüşləri, əsgər və zabitlərimizin cəsurluğunu, mərdliyini bir daha göz önündə canlandırmağa geniş imkan yaradır. Rəşadətli Ordumuz bu gün də Vətənin bir qarış torpağını düşmənə verməz”.

Vətən müharibəsində Ordumuzun möhtəşəm döyüş taktikasının dünyanı heyran, erməniləri isə peşman etdiyini vurğulayan Ç.Qənizadə beynəlxalq hərbi ekspertlərin Ordumuz haqqında fikirlərini də xatırladıb: “Onların qənaətinə görə, hücum dronlarının döyüşdəki yüksək hədəf dəqiqliyi dünya hərb tarixində bir ilkdir. Qeyd edib ki, İkinci Qarabağ müharibəsi Ordumuzun gücünü, müasirliyini göstərdi. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünyanın aparıcı kütləvi informasiya vasitələrində dəfələrlə məlumat verilib ki, inkişaf etmiş ölkələr, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və digər qüdrətli dövlətlər İkinci Qarabağ müharibəsində Silahlı Qüvvələrimizin hərbi taktikasını, bütövlükdə bütün aspektlərini öyrənirlər. Öz Ordularını müasir standartlara, modern tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Biz çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq”.

Bu gün dünyanın demək olar bütün ölkələrinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü beynəlxalq səviyyədə dəstəklədiyini diqqətə çatdıran hüquq müdafiəçisi vurğulayıb ki, bunu haqq savaşında qazandığımız parlaq Qələbə münasibətilə dövlətimizin başçısına ünvanlanmış çoxsaylı təbriklər də təsdiqləyir. Müzəffər Ordumuz azğın düşmənin törətdiyi təxribatlara layiqli cavab verdi.

Hərbçilərimizin qəhrəmanlığı ilə qazanılan şanlı Qələbəmizin gənclərimizdə vətənpərvərlik ruhunu daha da artırdığını vurğulayan Ç.Qənizadə deyib: “Gənclərin orduya dəstək üçün nümayiş etdirdikləri birlik bir daha göstərir ki, ölkəmizdə milli mənəviyyat, vətənpərvərlik hissi yüksəkdir. Azərbaycan xalqı öz ərazi bütövlüyünü qorumağa hər an hazırdır. Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, dövlət və ordu quruculuğu istiqamətində atdığı qətiyyətli addımlar və onun ətrafında bir yumruq kimi birləşmiş xalq ilə dövlətimiz güclü, rəşadətli orduya malikdir”.

Hüquq müdafiəçisi Prezident-xalq-ordu birliyini əks etdirən möhkəm bağlılığın xalqımızı daha da qürurlandırdığını vurğulayıb. Qeyd edib ki, Vətən qarşısında öz borcunu dərk edən Azərbaycan övladı kimi şərəflə ordu sıralarına qoşulmağı hər bir vətəndaşımız səbirsizliklə gözləyir. “Biz Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin hər bir qərarını dəstəkləyir və onun icrasına daim hazırıq. Azərbaycan xalqının birliyini, dövlətimizin gücünü heç bir qüvvə sarsıda bilməyəcək. Biz birlikdə güclüyük”, - deyə Ç.Qənizadə əlavə edib.



## Kürün qurumasının qarşısını almaq üçün hansı tədbirlər görüləcək?

***Baş nazir Əli Əsədov "Kür çayının aşağı axarında suyun axınının tənzimlənməsi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.***

"Unikal"ın məlumatına görə, sərəncamda qeyd edilib ki, "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə müvafiq Komissiya yaradılıb və su ehtiyatlarından içməli su təchizatı, suvarma və energetika məqsədləri baxımından planlı, koordinasiyalı və optimal istifadə istiqamətində görülən tədbirlər sayəsində Kür çayı üzərində yerləşən və ölkənin ən iri su anbarı olan Mingəçevir su anbarına əvvəlki illə müqayisədə daxil olan suyun həcminin azalmasına baxmayaraq, anbarda yığılmış suyun həcminin təxminən 1 milyard kubmetr həcmində artırılmasına nail olunsa da, son illərdə dünyada, o cümlədən məhdud şirin su ehtiyatlarına malik Azərbaycan Respublikasında müşahidə edilən iqlim dəyişiklikləri ilə əlaqədar Mingəçevir su anbarında tələb olunan su həcminin toplanması mümkün olmayıb.

Bildirilib ki, azsululuq dövründə Kür çayının aşağı axarında suyun azalması və 50 kilometrlik mənsəb hissəsində Xəzər dənizinin suyunun çayın suyuna qarışması nəticəsində suyun duzlaşma dərəcəsinin artması baş verir ki, bu da həmin ərazidə məskunlaşmış əhalinin fasiləsiz içməli su və əkin sahələrinin suvarma suyu ilə təminatında ciddi çətinliklər yaradır (apa).

Sərəncama əsasən, Kür çayının aşağı axarında azsululuq dövründə suqəbuledici qurğuların fəaliyyətində yaranan problemlərin və çayın mənsəb hissəsində müşahidə edilən suyun duzlaşma dərəcəsinin artmasının qarşısının alınması məqsədilə:

- "Azmelsutəsərrüfat" Açıq Səhmdar Cəmiyyətinə tapşırılıb ki, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədləri hazırlanmaqla Kür çayının aşağı axarındakı suqebuledici qurğuların normal istismarı üçün suyun səviyyəsinin tənzimlənməsi və mənsəb hissəsində suyun duzlaşma dərəcəsinin artmasının qarşısının alınması ilə bağlı təxirə salınmadan müvafiq tədbirlərin görülməsini təmin etsin.

İqtisadiyyat Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Fövqəladə Hallar Nazirliyinə və Neftçala Rayon İcra Hakimiyyətinə tapşırılıb ki, öz səlahiyyətləri çərçivəsində bu Sərəncamda qeyd olunan işlərin həyata keçirilməsinə zəruri köməklik göstərsinlər.

Komissiyaya tapşırılıb ki, bu Sərəncamda qeyd olunan işlərin həyata keçirilməsini təmin etmək məqsədilə zəruri əlaqələndirmə və maliyyələşmə məsələlərini həll etsin.

## Yaz fəslinin Azərbaycana daxilolma vaxtı açıqlanıb



***Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin Astrofizika kafedrası bahar fəslinin Azərbaycana daxilolma vaxtını açıqlayıb.***

BDU-dan "Unikal"a verilən məlumata görə, 2022-ci ildə Azərbaycan ərazisində baharın gəlişi martın 20-də Bakı vaxtı ilə saat 19:33:23-də baş verəcək.

Bu zaman gecə ilə gündüz bərabərləşəcək, Günəş ekliptika üzrə hərəkət edərək ekvatoru kəsəcək və Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçəcək. Həmin andan Şimal yarımkürəsində astronomik yaz fəsli, Cənub yarımkürəsində isə payız fəsli başlayacaq. Yaz fəslinin uzunluğu 92 gün 17 saat 40 dəqiqə olacaq.

## COVID-19 virusu gözlərdə konyuktivitin yaranmasına səbəb ola bilər - Nazirlik



***"Digər xəstəliklər kimi göz xəstəliklərində də irsiyyətin rolu böyükdür. El arasında "Toyuq korluğu", tibbdə isə hemeralopiya (gecə görmə qabiliyyətinin azalması) xəstəliyi də irsən ötürülür. Təəssüf ki, bir çox genetik xəstəliklərdə olduğu kimi bu xəstəliyin tam müalicəsi yoxdur, sadəcə dəstək verici müalicəsi mövcuddur".***

"Unikal" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Tural Qəlbinur bildirib. Onun sözlərinə görə, miopiya, hipermetropiya və digər refraktiv görmə qüsurlarında da irsiyyətin rolu danılmazdır. Həmçinin keratokonus xəstəliyi təqribən 25 faiz hallarda genetik yolla valideynlərdəm uşaqlara keçir.

Ekspert həmçinin deyib ki, anadangəlmə korluq - görmə orqanın bətndaxili inkişaf patologiyasıdır.Təəssüf ki, bir çox hallarda müalicəyə tabe olmur. Əsas səbəb olaraq ananın hamiləlik dövründə keçirdiyi bir sıra infeksion xəstəliklər, travmalar və genetik xəstəliklər aiddir. Bu zaman embriogenez pozulur, nəticədə görmə orqanı inkişafı tam və ya düzgün getmir.

Həkim gözü zəiflədən əsas vasitələr barədə açıqlama verərək deyib ki, əgər görmə qabiliyyəti artıq pisləşibsə, o zaman məşhur inancın əksinə olaraq, bunun niyə baş verdiyini düşünmək hələ də gec deyil:

"Görmə qabiliyyəti həyat boyu pisləşə bilər və bu prosesi ən azı bir az dayandırmaq üçün səbəbin nə olduğunu başa düşməlisiniz. Kompüter və elektron qurğuların fasiləsiz istifadəsi gözlərin qurumasına və yorulmasına gətirib çıxara bilər. Onurğa problemləri də görmə zəifliyinə səbəb ola bilər.

Onurğa sütunu xəstəlikləri nəticəsində başın və gözün qan dövranı pozulur və nəticədə görmə pozğunluğu yaranır. Kompüter arxasında oturarkən duruşunuza nəzarət edin, onurğa üçün fiziki məşqlər edin.

Yuxusuzluq və stress şiddətli yorğunluğa gətirib çıxarır, nəticədə görmə zəifləməyə başlayır. Sağlamlığınızın qeydinə qalın, yaxşı istirahət edin və gözlərinizi rahatlaşdırmaq üçün xüsusi məşqlər edin.

Siqaret çəkmək, alkoqol qan dövranının pozulmasına kömək edir, bu da gec-tez görmə pozğunluğuna səbəb olacaqdır. Buna görə də bu vərdişlərdən necə qurtulacağınızı düşünməyə dəyər".

Əhali arasında ən çox yayılan göz xəstəliklərinə gəldikdə həkim deyib ki, 5-30 yaş arası fərdlərdə daha çox miopiya (yaxından görmə və hipermetropiya (uzaqdan görmə) geniş yayılıb:

"Eynək və kontakt linzalar miopiyanın ən geniş yayılmış müalicə üsuludur. Bu üsullar miopiyanın dərəcəsini azaltmır, lakin görməni yaxşılaşdırır. Bunlardan imtina edənlərə lazer korreksiyası təklif edilir.

40 yaşdan yuxarı olan şəxslərdə daha çox katarakta və diabetik retinopatiya daha geniş yayılıb. Diabetik retinopatiya şəkərli diabet zamanı gözün tor qişasının damarlarının zədələnməsi nəticəsində baş verən xəstəlikdir.

60 yaşdan yuxarı əhali arasında isə sarı ləkə xəstəliyi (makula degenerasiyası) daha geniş yayılıb".

Koronavirusun gözə təsirindən danışan həkim bildirib ki, göz ən həssas orqanlardan biridir, çünki maska taxarkən belə virusa məruz qalır:

"Ona görə də COVID-19-un gözlərə yoluxmasının birbaşa qarşısının almaq üçün heç bir vasitə yoxdur. Burada ən mühüm qorunma yolu - maska taxaraq, virusun keçməsinin qarşısını almaq və peyvənd olunaraq xəstəliyin daha yüngül keçməsini təmin etməkdir. Xüsusilə qapalı məkanlarda virusa məruz qalma və əlləri gözə apararaq birbaşa çirklənmə riski gözlərin qorunmasını çətinləşdirir. Virusun yüksək risk altında olduğu yerlərdə eynəkdən istifadə qoruyucu ola bilər. Dezinfeksiyaedici vasitələrdən istifadə edərək əllərimizi təmiz saxlamaq son dərəcə vacibdir. Virusun gözdə olduğu yüngül hallarda qoruyucu antibiotik damcılarından istifadə etməyi də tövsiyə edilir".

Həkim deyib ki, aparılan araşdırmalar göstərib ki, COVID-19 virusu gözlərdə konyuktivitin yaranmasına səbəb ola bilər:

"Bu zaman gözlərdə qızarıqlıq, ağrı, göynəmə, yanma və yaş axma kimi əlamətlər meydana çıxır. Həmçinin şəkərli diabet, hipertenziya və başqa xroniki xəstəlikləri olan insanlarda koronavirus qanın laxtalanma sistemini pozduğundan retinada qanama və başqa əlamətlər meydana çıxa bilər. Əgər xəstələrdə görmənin ani zəifləməsi baş verərsə, dərhal oftalmoloqa müraciət etməlidirlər" - o deyib.

# Ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Kür çayı ekoloji fəlakət Astanasında

## Mirnuh İsmayılov: "Kürün aşağı axarına Salyan-Neftçala ərazisinə Kürün suyu gedib çata bilmir. Əvəzində dənizin suları Kürün aşağı axarına dolur"



***Kür çayında yaranmış vəziyyət artıq narahatedici həddə çatıb. Kürdə suyun azalması səbəbindən kürqırağı yaşayış məntəqələri yayda vəziyyətin daha da pisləşəcəyindən ehtiyatlanırlar. Sosial platformada da Kür çayında suyun kəskin azalmasını əks etdirən şəkillər paylaşılıb. Həmin görüntülərdə Kür çayının ekoloji fəlakət astanasında olduğu qeyd edilir.***

Bəs görəsən Kürün suyunun azalmasının səbəbi nədir?

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin Hidrologiya Mərkəzinin direktoru Asif Verdiyev deyir ki, Kür çayında sululuğun kəskin azalma səbəbi iqlim dəyişikliyinin su ehtiyatlarına öz təsirini göstərir. A. Verdiyev bildirdi ki, qonşu ölkələrdən bizim ərazimizə daxil olan hissədə suda azalma müşahidə olunur ki, bu da bizim su ehtiyatlarına öz təsirini göstərir. Onun sözlərinə görə, dağlıq ərazilərdə qar ehtiyatlarının az olması, qarın vaxtından tez əriməsi, Böyük və Kiçik Qafqazın dağlıq ərazilərində şaxtalı günlərin azalması, müəyyən yüksəkliklərə qədər qarın əriməsinə səbəb olur. Nəticədə yaz-yay gursululuq dövründə su azalır.

A.Verdiyev onu da qeyd edib ki, halhazırda respublika çaylarında qış azsulu dövr müşahidə olunur: "Adətən dağlıq ərazilərə yağıntı qar şəklində yağdığından çaylarda su azalır. Amma artıq aprel ayından başlayaraq çaylarda gursululuq dövrü müşahidə olunmağa başlayıb.

Bu dövrün proqnozlaşdırılması üçün mart ayının ilk günlərindən Böyük və Kiçik Qafqazın, o cümlədən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının dağlıq ərazilərində 5 qrupdan ibarət ekspedisiya təşkil olunacaq. 31 marşrut üzrə qarölçmə işləri həyata keçiriləcək. Martın sonunda biz yaz-yay gursululuq dövrünün proqnozunu hazırlayıb müvafiq qurumlara təqdim edəcəyik".

Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun Landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsinin rəhbəri Mirnuh İsmayılovun sözlərinə görə, Kürdə yaranmış vəziyyətin başlıca səbəbi Araz çayında olan problemlə bağlıdır. M. İsmayılov bildirib ki, Mingəçevir su anbarından buraxılan su Kürü qidalandırırdı. Eyni zamanda bu suya Arazdan gələn su qarışırdı. Buna görə də ilboyu Kür çayında suyun səviyyəsi suvarma normalarına və ekoloji tələblərə uyğun vəziyyətdə olub: "Amma Araz çayında böyük su anbarlarının tikilməsi Bəhramtəpə su qovşağından suyun gəlməsinin azalmasına səbəb olub. Digər tərəfdən çayın yatağında da qum-çınqıl karxanaları işləyir. Çay yatağı öz təbii yatağını demək olar ki, itirib. Mingəçevir su anbarından da suyu az buraxanda çayda kritik vəziyyət yaranır. Çünki, Mingəçevir su anbarının vəzifəsi yay fəslinə suyu yığıb saxlamaqdır. Bundan əlavə, iqlim dəyişiklikləri nəticəsində yağıntı da az düşür. Nəticədə Kürün aşağı axarına Salyan-Neftçala ərazisinə Kürün suyu gedib çata bilmir. Əvəzində dənizin suları Kürün aşağı axarına dolur".

Şöbənin müdiri bildirir ki, bunun da səbəbi Kürün dənizə birləşdiyi yerin relyefinin hündür olmasıdır:"İçəri tərəflərdə çayın yatağı daha dərindədir. Çayın dənizə birləşdiyi yerin relyefi ilə çayın aşağı axınındakı relyefi arasında iki-üç metr fərq yaranıb. Bu fərqi yaradan da çayın suyunun tənzimlənməsidir. Dibgətimələrin çayda az olması ilə əlaqədar çay öz yatağını doldura bilmir. Bu zaman dənizlə çayın yatağı arasında bənd yaranır. Həmin bənd dənizdə güclü küləklər olduqda dəniz sularını qovub Kürün aşağı axınına doldurur.

Dəniz suyu ağır olduğundan çayın yatağı ilə yuxarıya doğru hərəkət etməyə başlayır. Amma geriyə dənizə qayıda bilmir. Çünki dənizə birləşdirən yerdə çay yatağının relyefi daha hündürdür. Bununla əlaqədar olaraq 60-65 km məsafədə biz dəniz suyunun çay yatağına dolduğunu görürük. Tədqiqat aparanda gördük ki, çayda suyun üstündə qismən də olsa şirin su var. Amma Mingəçevir su anbarından suyu az buraxanda çayda çox kritik durum yaranır. Çayın yatağı quruma həddinə çatır. Bu da əhali arasında narahatlıq yaradır".

İnstitut səlahiyyətlisi onu da bildirir ki, çaydan suvarma məqsədilə istifadə edilən suyun həcminin artması da problemlərə yol açır: "Yevlağa qədər çayda iki mindən yuxarı qanuni və qeyri-qanuni nasos stansiyaları işləyir. Onlar suyu gecə-gündüz götürürlər. Hökumət bu istiqamətdə iş görsə də yerli qurumların, bələdiyyələrin də görəcəyi iş çoxdur.

Hazırda suvarma üçün suyu daha çox aqroparklara və yeni suvarma sistemi ilə təhciz edilmiş sahələrə verirlər. Yerdə qalan kiçik fermerlərə su çatmır. İqlim dəyişiklikləri nəticəsində yağıntı azalır, havanın temperaturu və suvarma norması artır. Azərbaycanda yeni suvarma sistemi ilə qurulan sahələr otlaqörüş sahələri hesabına genişlənməkdədir.

Həmin sahələrin təyinatı getdikcə dəyişdirilir. Əvvəl otlaq sahəsi olan ərazilər sürətlə aqroparklara çevrilir. Bunlar suya tələbatı artırır. Kiçik fermerlər nəticədə əziyyət çəkir. Onlara suyu rejimlə,az verirlər. Bu yay Neftçala və Salyanda müəyyən çətinliklər olacaq. Ona görə də su ehtiyatlarını düzgün idarəetmək lazımdır. Bizim apardığımız müşahidələr göstərir ki problemlərin aradan qaldırılması çox gec həyata keçirilir".

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən isə bildirdilər ki, suvarmada su ehtiyatlarının səmərəli istifadəsi daim diqqətdə saxlanılır. Kürqırağı yaşayış məntəqələrinə, əkin sahələrinə suyun verilişi çaylarda vəziyyət nəzərə alınmaqla paylanılır.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# ADU-da kitab təqdimatı oldu

***Azərbaycan Dillər Universitetində (ADU) Konfutsi İnstitutunun direktoru Rafiq Abbasovun Çin və Azərbaycan dilində nəşr olunan "Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü. Prezident salnaməsi" kitabının təqdimatı keçirilib.***

"Unikal" xəbər verir ki, kitabda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-2021-ci illər ərzində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı sahəsində çıxışlar, nitqlər, müsahibələr, məktublar, məruzələr əks olunub.

ADU-nun rektoru, akademik Kamal Abdulla kitabın çapını əlamətdar hadisə adlandırıb və bildirib ki, kitab son dərəcə vacib mövzuya həsr olunub. Rektor qeyd edib ki, kitab təkcə çinşünaslar üçün deyil, eyni zamanda Çinə yaxın və uzaq ölkələr üçün də münasibətlərin yol göstərici ola bilər: "Azərbaycan Prezidenti İlham Əliyev ölkə həqiqətlərinin dünyaya çatdırılması üçün əldə olan imkanlardan həmişə tam şəkildə istifadə edib. Hesab edirəm ki, bizim digər mərkəzlər də bu nəşrdə əks olunan istiqamətdə kitablar, tədqiqat əsərləri ortaya qoymalıdırlar".

Azərbaycan Dillər Universitetinin Regionşünaslıq və Beynəlxalq münasibətlər fakültəsinin dekanı İbrahim Kazımbəyli Azərbaycan-Çin münasibətlərinin inkişafının əsas tarixi mərhələləri, ulu öndər Heydər Əliyevin ÇXR-ə iki ölkə arasında çoxtərəfli əməkdaşlığın əsasını qoyan, Böyük İpək Yolu ilə bağlı tarixi səfəri haqqında ətraflı məlumat verib. Qeyd edib ki, kitabın Çin dilində tərtib olunması ümummilli lider Heydər Əliyev kursunun layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan və Çin arasında ənənəvi dostluq münasibətlərinin genişləndirilməsi sahəsində göstərdiyi fəaliyyətin Çin cəmiyyətinə çatdırılması nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edir.

Təqdimatda çıxış edən ADU-nun Beynəlxalq münasibətlər kafedrasının dosenti Samirə İmanova İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın böyük tərəqqi yolu keçdiyini, dinamik inkişaf edən və bütün dünyada hörmət olunan ölkəyə çevrildiyini vurğulayıb. S.İmanova Çin dilində kitabın təqdimatının ADU-da keçirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb. O, qeyd edib ki, Prezident İlham Əliyevin təhsil sahəsində uğurlu siyasətinin nəticəsidir ki, universitetdə 20-dən artıq xarici dil tədris olunur, Konfutsi İnstitutu və dil mərkəzləri fəaliyyət göstərir. Dosent bildirib ki, 2012-ci ildən ADU-da Çin dili tədris olunur.

Təqdimat mərasimində çıxış edən ADU-nun Beynəlxalq münasibətlər kafedrasının dosenti Emil Qasımov qeyd edib ki, təqdim olunan kitab Prezident İlham Əliyevin parlaq intellekti və uğurlu siyasi gələcəyi olan dövlət xadimi kimi bütün dünyada tanındığını bir daha təsdiq edir. O, kitabın əhəmiyyətini vurğulayaraq əminliklə bildirib ki, Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı geniş məlumat verən nəşr gələcəkdə Azərbaycan-Çin əməkdaşlığında böyük rol oynayacaq, Azərbaycan və dünya ictimaiyyəti üçün qiymətli mənbəyə çevriləcək və eyni zamanda ADU-nun Çin dilini öyrənən tələbələri üçün də dəyərli dərs vəsaiti olacaq.

## Bakı Limanı: "Dəyişən dünyaya indidən hazır olmalıyıq"



***Dünya dəyişir və 2030-2035-ci ildə olacaq dünyaya bu gündən hazır olmaq lazımdır. Yaşıl dünyada yaşamaq istəyiriksə, onun təməlini indidən qoymaq lazımdır. Neft ölkəsi olaraq biz bəlkə də belə məsələləri çox fikirləşmirik. Lakin önümüzdəki 10 ildə olanları indidən planlamaq lazımdır.***

"Unikal" xəbər verir ki, bu barədə "Bakı Limanının imkanlarının genişləndirilməsinə dəstək: Faza 2" layihəsinin bağlanışı mərasimi zamanı Bakı Limanının Baş direktoru Taleh Ziyadov deyib.

T.Ziyadov əlavə edib ki, COVID-19 pandemiyası ticarət əlaqələrinə öz təsirini göstərdi yə yeni reallıqları üzə çıxartdı.

## Müdafiə Nazirliyinin daha bir sabiq idarə rəisi saxlanıldı

***Müdafiə Nazirliyinin daha bir sabiq vəzifəli şəxsi saxlanılıb. Nazirliyin Mənzil İstismar İdarəsinin sabiq rəisi Fikrət Mirzəyev dünən keçirilən əməliyyatla tutulub.***

O, xüsusilə külli miqdarda mənimsəmədə təqsirləndirilir. F.Mirzəyevə qarşı Cinayət Məcəlləsinin 179.4-cü maddəsi ilə ittiham irəli sürülüb.

Qeyd edək ki, son günlər DTX Müdafiə Nazirliyində baş verən yeyintilərlə bağlı yüksək vəzifə tutmuş şəxslərin həbsi ilə nəticələnən əməliyyatlar keçirib.

## Çörəyin qiyməti yenidən bahalaşa bilərmi? - AÇIQLAMA

***"Belə fikirlər var ki, guya, çörəyin qiyməti yenidən artacaq. Ötən gün İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə əlaqə saxladım, bildirildi ki, belə bir məsələ yoxdur. Xidmət tərəfindən monitorinqlər keçirilir".***

Bunu "Unikal"a açıqlamasında deputat Vahid Əhmədov deyib. Taxılın idxalı məsələsinə gəlincə, deputat bildirib ki, taxıl bir çox ölkədə satılır:

"Pakistan kifayət qədər taxıl ixrac edir. Qazaxıstanla müqaviləmiz var ki, bu ölkədə taxıl problemi yoxdur. Oradan idxal edirik. Bu, bizim daxili bazara təsir etməli deyil. Çörəyin qiyməti yeni qalxıb. Taxılı istənilən ölkədən alıb gətirmək olar. Vaxt var idi, uzaq Latın Amerikası ölkələrindən taxıl alırdıq. Əsas odur ki, vəsait var. Bu baxımdan bizim ölkədə taxılda problem yaranmamalıdır. Dövlət Ehtiyatlar Agentliyi taxıl ehtiyatı ilə ciddi məşğul olur. Yaxın zamanlarda qiymət artımlarının olacağını gözləmirəm. Rusiya ilə bağlı sanksiyalar uzunmüddətli olarsa, müəyyən problemlər yarana bilər".

*Anar Kəlbiyev*

## "TuranBank"dan müştərilərinə xəbərdarlıq

***"TuranBank" müştərilərinə xəbərdarlıq edib.***

"Unikal" xəbər verir ki, bankın göndərdiyi mesajda deyilir: "Bu gündən etibarən Rusiya Federasiyası ərazisində "Mastercard" ödəniş kartları ilə əməliyyatların aparılması mümkün olmayacaq".

# ASC Goranboyda və Oğuzda işlər görür

***Oğuzda yeni suvarma mövsümünə hazırlıq gedir və dağ çaylarında daş-beton bəndlər qurulur.***



Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Oğuz rayonunda növbəti suvarma mövsümünə hazırlıq işləri davam edir. Rayonun 24 kəndində 10650 hektardan artıq suvarılan torpaq sahələrinə xidmət edən Oğuz Suvarma Sistemləri İdarəsi balansında olan torpaq məcralı kanallarda lildən təmizləmə və kanalların beton üzlüyə alınmasını həyata keçirir. Əkin sahələrinin suvarılması üşün 570 km kanal və arxlardan istifadə olunur ki, həmin kanal və arxların 112 km-i birinci dərəcəli, 460 km isə ikinci dərəcəli arxlardır. Kanal və arxların 90%-i torpaq məcralıdır. Əsas su bənbəyi yağış, qar suları və yeraltı sulardır. Hər il mütamadi olaraq kanal və arxlarda mexanizimlərlə lildən, kol- kosdan təmizləmə işləri aparılır. Su itkisinin qarşısının alınması məqsədi ilə rayonda kanalların betonlaşdırılması işlərinə start verilib. 2021-ci ildə idarə ümumilikdə 64 kanal və 3 kollektorda 306 km hissədə lildən təmizləmə işləri görüb.

Oğuz Suvarma Sistemləri İdarəsi balansında olan əkin sahələrinin suvarılması ilə yanaşı rayon ərazisində yerləşən yaşayış məntəqələrinin və əkin sahələrinin sel sularından mühafizəsini təşkil edir. Çay məcralarının təmizlənməsi istiqaməti üzrə Xal Xal çay, Türyan çay, Oğuz çay, Daşağıl çay və Qala çay sistemlərində mexanizimlərlə təmizlənmə işləri aparılıb. Bundan Qala çay sisteminin sağ və sol sahilində 120 kubmetr qabion bəndi qurulub və mövcud daş beton bəndlərin 4-də təmir bərpa işləri aparılıb. Hazırda idarənin texnikaları Qala Çay sistemində bu işlərə cəlb olunub.

Onu da qeyd edək ki, Oğuz rayonunda əsasən taxılçılıq, tütünçülük, bağçılıq və meyvəçilik bağlarının əkini üstünlük təşkil edir. Ötən il əkilmiş 4256 hektar ərazidə taxıl sahəsi, 173 hektar ərazidə tütün, 315 hektar ərazidə qarğıdalı bitkiləri 3885 hektar ərazidə çoxilliklər fındıq, qoz, meyvə və yonca bağları ümumilikdə 3 dəfə suvarılıb.

Goranboyda əkin sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılır. Dilqəm Şərifov bildirib ki, Goranboy Suvarma Sistemləri idarəsi rayonun 66500 hektar əkin sahələrinin suvarılmasına xidmət edir. Ötən il əkin sahələrinin suvarılması tam olaraq aparılıb. Bu sahələrdən 3000 ha pambıq, 24500 ha taxıl, 15200 ha yem bitkiləri, 8500 ha həyətyanı, bostan, çoxillik bağ, günəbaxan, qarğıdalı, çuğundur və tütün plantasiyaları olub. Bu il də idarə payızlıq və yazlıq əkinlərin suvarılmasının mütəşəkkil aparılması üçün hazırlıq işlərini davam etdirir. Rayonda əkin aparılan sahələrin 46000 hektarı 958 ədəd subartezian quyusu və 16 ədəd nasos stansiyaları, 20500 hektarı isə təbii su mənbələri vasitəsi ilə suvarılır. Suvarma suyunun əkin sahələrinə çatdırılması üçün 1100 metr torpaq məcralı kanal beton üzlüyə alınıb, 3 ədəd hidrotexniki qurğularda və 3 ədəd nasos stansiyalarında cari təmir işləri aparılıb. Bundan başqa balansda olan 680 ədəd subartezian quyularının nasosları təmir olunub, 50 ədədinin idarəetmə şitləri yeni çəpərə alınıb, 45 ədəd subartezian quyularının isə elektrik avadanlıqlarında sazlama işləri aparılıb.

Goranboy rayonunda uzun illərdir təsərrüfatla məşğul olan fermerlər bu il əkdikləri məhsulun sahəsini genişləndirmək qərarına gəliblər. Bu da suvarma suyunun daha asan və itkisiz əldə olunması ilə əlaqəlidir.

Goranboy Suvarma Sistemləri İdarəsi su itkisinin qarşısının alınması və suvarma suyununun fermerlərə daha asan çatdırılması üçün torpaq məcralı kanallarda lildən təmizləmə işlərini də davam etdirir. Bu günə qədər idarənin texnikaları vasitəsilə 541 min kub metr kanal və arxlarda lildən təmizləmə işləri görülüb, selə qarşı mübarizə tədbirləri çərçivəsində isə 77000 kub metr çay məcraları təmizlənib.

Qeyd edək ki, idarə tərəfindən məhsuldarlığını tamamilə itirmiş Xınalı, Goranlı, Fəxralı, Qaramusalı, Borsunlu Səfikürd kəndlərində 1, Veyisli kəndində isə 2 ədəd olmaqla ümumilikdə 8 ədəd subartezian quyusunun iş rejimi bərpa olunub.

# Eldar Həsənovun apellyasiya şikayəti üzrə məhkəmə keçirildi

***Sabiq səfir Eldar Həsənovun barəsində olan hökmdən verilmiş apellyasiya şikayəti üzrə məhkəmə başlayıb.***

"Unikal" xəbər verir ki, bu gün Bakı Apellyasiya Məhkəməsində hakim Elmar Rəhimovun sədrliyi ilə keçirilən ilkin baxış iclasında təqsirləndirilən şəxsin anket məlumatları və apellyasiya şikayətinin dəlilləri dəqiqləşdirilib.

Proses barədə açıqlama verən Eldar Həsənovun vəkili Valeh Mehraliyev bildirib ki, məhkəmədə ilk olaraq təqsirləndirilən şəxsin həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə vəsatət verilib. Müdafiəçilər daha sonra məhkəmənin qismən istintaqla aparılmasını istəyiblər. Prosesdə, həmçinin cinayət işi ilə bağlı başqa bir neçə vəsatət qaldırılıb.



Məhkəmə vəsatətlərin heç birini təmin etməyib.

Baxış iclası martın 18-nə təyin olunub.

Xatırladaq ki, Eldar Həsənov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən xüsusi əməliyyatla həbs edilib.

Sabiq səfir, Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israfetmə, külli miqdarda törədildikdə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, külli miqdarda törədildikdə) 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, ağır nəticələrə səbəb olduqda) 308-1.1 (Dövlət büdcəsinin vəsaitindən təyinatı üzrə istifadə etməmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunub.

E.Həsənov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edilib. Hökmə əsasən, təqsirləndirilən şəxsin üzərinə həbs qoyulmuş əmlakları da müsadirə olunub.

# 46 mindən çox şagird üçün buraxılış imtahanı keçiriləcək



***Dövlət İmtahan Mərkəzi 12 və 13 martda tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçirəcək.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, imtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

İştirakçılar imtahana tibbi maska ilə gəlməli və onlardan düzgün (burun, ağız və çənə nahiyəsini tam örtməklə) istifadə etməlidirlər. Maskanı çıxarmaq qadağandır və bütün proses (buraxılış rejimi, imtahan müddəti, imtahan binasının tərk edilməsi) boyu istifadə olunmalıdır.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

-İmtahana buraxılış vərəqəsi;

-Sağlamlıq haqqında bəyannamə (buraxılış vərəqi ilə birlikdə çap edirsiniz və imzalayırsınız. İmtahana buraxılış vərəqəsi şagirdin özündə saxlanıldığı, sağlamlıq haqqında bəyannamə isə imtahan nəzarətçisinə təhvil verildiyi üçün hər iki sənəd ayrıca vərəqdə çap olunmalıdır);

- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

-Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə DİM-in saytından martın 2-dən etibarən çap edib götürə bilirlər.

İmtahanlar 12-13 mart tarixlərində respublikanın 31 şəhər və rayonunda keçiriləcək.

Xatırladaq ki, imtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 222 imtahan binası, 3553 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 222 ümumi imtahan rəhbəri, 579 imtahan rəhbəri, 4393 nəzarətçi-müəllim, 429 buraxılışı rejimi əməkdaşı (mühafizə), 222 bina nümayəndəsi ayrılıb.

Martın 12-də keçiriləcək imtahanlarda 26 697, martın 13-da keçiriləcək imtahanlarda isə 19 418 nəfər olmaqla, ümumilikdə 46 115 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanlarda 36 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, gözdən əlillər üçün fərdi nəzarətçilər təyin edilib.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

Bundan əlavə, Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə uyğun olaraq imtahan binalarında bir sıra profilaktik tədbirlər - hər bir otağa düşən iştirakçı sayının sosial məsafə prinsipinə uyğun şəkildə tənzimlənməsi, imtahan heyətinin müvafiq qoruyucu vasitələrlə (əlcək, tibbi maska) təmin olunması həyata keçirilib. İmtahanın idarə olunması prosesinə ümumi imtahan rəhbəri, imtahan rəhbəri, nəzarətçi-müəllim, mühafizə əməkdaşı və s. qismində yalnız COVID-19 peyvənd sertifikatı (və ya immunitet sertifikatı) olan şəxslər cəlb olunacaqlar.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

Ehtiyat tədbirləri çərçivəsində imtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılacaq, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunacaqdır. İmtahana bədən hərarəti 37°C-dən aşağı olan şəxslər buraxılır.

İmtahan iştirakçıları imtahan binasına daxil olmaq üçün yoxlamadan keçərkən sosial məsafəni saxlamaqla şəxsiyyətini təsdiq edən sənədin üz tərəfini DİM əməkdaşının görəcəyi şəkildə ona tərəf uzatmalı və müvəqqəti olaraq maskasını aşağı salaraq üzünü göstərməlidir.

DİM tərəfindən pandemiya şəraitinin tələblərinə uyğun imtahanların keçirilməsi qaydaları ilə bağlı maarifləndirici videoçarx və davranış qaydaları ilə buradan tanış ola bilərsiniz.

# Ukraynadan 5000-dən çox vətəndaşımız təxliyə olunub



***Ukraynadakı vəziyyətlə əlaqədar, bu ölkədən indiyədək ümumilikdə, 5000-dən çox vətəndaşımız və onların ailə üzvləri Azərbaycana təxliyə olunub.***

Bu barədə "Unikal"a Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, indiyə qədər Rumıniyanın Buxarest və Yassi, Polşanın Katoviçe şəhərlərinə 12 çarter reysi və çoxlu sayda avtobus reysləri təşkil olunub.

Qeyd olunub ki, Ukraynadakı vəziyyətlə əlaqədar, bu ölkədən həmsərhəd ölkələrə üz tutmuş Azərbaycan vətəndaşları və onların digər ölkələrin vətəndaşları olan ailə üzvlərinin Azərbaycana təxliyə olunması istiqamətində davamlı tədbirlər görülür.



# Qəhrəman Elgünün Vətən sevgisi

***44 günlük İkinci Qarabağ müharibəsində döyüşdən-döyüşə atılan, Vətən sevgisini öz qanı hesabına torpağa yazan igid oğlanlardan biri də Elgün Tahir oğlu Mövlanovdur. Lerik şəhərində dünyaya göz açan Elgünün ömrü 18 il çəkdi. Özünü dərk edən gündən Vətənə bağlanır, elə bu müqəddəs yolda şəhidlik zirvəsinə ucalır. Və tutduğu yol canından artıq sevdiyi doğma Azərbaycan var olduqca Elgünü Vətən səmasının parlaq günəşinə döndərir. Xalqın qəlbində yaşamaqla dövlətdə öz qəhrəman oğlunu ölümündən sonra "Vətən uğrunda" medalına layiq görür.***

Elgün halal, el-obanın qeyrətini çəkən, doğma Vətəninə bağlı bir nəslin nümayəndəsidir. Məhz buna görə də Azərbaycanın müqəddəsliyi ona hər şeydən əziz idi. Odur ki, canına yağı dadanmış əzəli, əbədi yurd yerimiz Qarabağın taleyi onu çox narahat edirdi. Vətənə məhəbbət, düşmənə amansız nifrət Elgünü hər an döyüş meydanına səsləyirdi. O, 2020-ci ildə ordu sıralarına yola düşür. Ön cəbhədə Vətən torpaqlarını gözbəbəyi kimi qoruyur, əsgəri borcunu şərəflə yerinə yetirir. Və günü-gündən azğınlaşan erməni dığalarına qan qusdurmaq üçün Ali Baş Komandanın əmrini gözləyir.

Nəhayət, 2020-ci ilin sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlanır. Köksündə əsl qəhrəman ürəyi döyünən Elgün Vətən naminə çəkinmədən odun-alovun içinə atılır. Bir amalı olur: torpağı qanı bahasına qorumaq, mübarizliklə yağının ilan başını əzib qalib gəlmək. Dağlar diyarın igid oğlu yağıya qarşı üç gün döyüşür. Sentyabrın 30-da Goranboy rayonun Ağcakənd istiqamətində gedən ağır müharibədə yağı gülləsinə tuş gəlir. Savaşda olduğu günlərdə düşmənlə qeyri-bərabər döyüşlərdə yaşının çərçivəsinə sığmayan bir qəhrəmanlıq göstərir. Ən əsası Vətənin şərəfini uca tutmaqla ondan "oğul" adını ala bilir. Və bu, uca, müqəddəs adı torpaq uğrunda axıtdığı qani ilə əbədi olaraq möhürləyir. Sevdalandığı Vətən adlı sevgilisinin sinəsinə əbədi baş qoyduğu yer isə Lerik şəhərinin "Şəhidlər" xiyabanıdır.

İndi Lerik camaatı öz qəhrəman oğlu Elgünün adını hər yerdə qürurla çəkir, əziz xatirəsinə ucaldıqları bulaq kompleksini özlərinə müqəddəs and yeri bilirlər.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Həmyerlimiz Ukraynada 20 ton məhsulu pulsuz payladı

***Rusiyanın hərbi müdaxiləsi nəticəsində Ukraynada yaranan qida çatışmazlığının aradan qaldırılmasına azərbaycanlılar yaxından kömək edirlər.***

"Unikal" xəbər verir ki, bu barədə sosial şəbəkədə ukraynalılar yazıb. Belə ki, bu dəfə həmyerlimiz Rəşad İbadov Ukraynada insanlara 20 ton pomidor və xiyarı təmənnasız paylayıb. O, qeyd edib ki, tezliklə yerli sakinlərə 100 ton naringini də pulsuz paylayacaq. Bundan əvvəl həmyerlilərimiz Ukraynada yerli əhaliyə pulsuz çörək, ət və meyvə paylamışdı.

# Putinlə Zelenski arasında görüş mümkün ola bilər



***Rusiyanın xarici işlər naziri Sergey Lavrov Rusiya prezidenti Vladimir Putinlə Ukrayna prezidenti Volodimir Zelenski arasında "görüşün mümkünlüyünə ümid etdiyini" bəyan edib.***

"Unikal" xəbər verir ki, bu barədə o, Ankarada Ukraynanın xarici işlər naziri Dmitri Kuleba ilə danışıqlarından sonra verdiyi açıqlamada deyib.

Danışıqlar zamanı Kuleba Lavrovla digər məsələlərlə yanaşı, Zelenskinin Putinlə görüşünün mümkünlüyünü də ətraflı müzakirə edib.

***Ağarza Elçinoğlu***

# Britaniya 7 rus oliqarxa sanksiya tətbiq etdi

***Böyük Britaniya 7 rusiyalı milyardere qarşı sanksiyalar tətbiq edib.***



"Unikal" xəbər verir ki, sanksiya siyahısına "Rosneft"in baş direktoru İqor Seçin, "Rusal"ın təsisçisi Oleq Deripaska, "Qazprom"un baş direktoru Aleksey Miller, "Transneft"in baş direktoru Nikolay Tokarev, "VTB"nin baş direktoru Andrey Kostin, "Rossiya" Bankının İdarə Heyətinin sədri Dmitri Lebedev və "Çelsi" futbol klubunun sahibi Roman Abramoviçin adları daxil edilib.

Bildirilir ki, həmin şəxslərin Böyük Britaniya ərazisinə girişi qadağan olunub və onların ölkədəki aktivləri dondurulacaq.

# "Bir görüşdən möcüzə gözləmək olmaz" - Çavuşoğlu

***"Lavrovla Kulebanın görüşü asan olmasa da, gərgin keçmədi". Bunu Türkiyə xarici işlər naziri Mevlud Çavuşoğlu Antalyada Ukrayna, Rusiya və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşündən sonra deyib.***

Onun sözlərinə görə, bir görüşdən möcüzə gözləmək olmaz. Çavuşoğlu "danışıqların məkanı deyil, faktın özü önəmlidir" deyib.

Nazir Moskva ilə Kiyev arasında aparılan danışıqlarda uzunmüddətli atəşkəs və humanitar dəhlizlərin açılması məsələlərinin vacibliyini vurğulayıb. O, "danışıqların məkanı deyil, faktın özü önəmlidir" deyib. Bundan başqa, Çavuşoğlu Türkiyənin Rusiya və Ukrayna arasında növbəti görüşə ev sahibliyi etməyə hazır olduğunu da söyləyib.

# Ukrayna ordusu "İsgəndər-M" diviziyasını məhv etdi

***Çerniqov istiqamətində Ukrayna Silahlı Qüvvələri "İsgəndər-M" ballistik operativ-taktiki raket komplekslərinin bir diviziyasını məhv edib.***

"Unika" xəbər verir ki, bu barədə Ukrayna "Şimal" əməliyyat komandanlığından məlumat verilib.

"Çerniqov istiqamətində "Şimal" operativ komandanlığının bölmələrindən biri mülki şəxsləri atəşə tutan "İsgəndər-M" diviziyasını məhv edib", - məlumatda deyilir.

***Gülayə Mecid***

# "Lavrovun tələbləri kapitulyasiya siyahısına oxşayır" - Kuleba

***"Yenə belə bir formatda görüşməyə razıyıq. Həll yolunu axtarmaq istəyiriksə, bunu məqsədəuyğun hesab edirəm".***

"Unikal" xəbər verir ki, bunu Ukraynanın xarici işlər naziri Dmitri Kuleba Antalyada Türkiyə və Rusiyanın xarici işlər nazirləri Mövlud Çavuşoğlu və Sergey Lavrovla üçtərəfli görüşdən sonra keçirdiyi mətbuat konfransında deyib.

"Ruslar müzakirələrə hazır olsa, mən də buna hazıram. Lavrovun bizdən tələbləri kapitulyasiya siyahısına oxşayır. Bu müharibəni dayandırmalıyıq", - deyə o qeyd edib.

# "Rusiya müharibənin Ukraynadan kənara çıxmasını istəyir" - Ünal Atabay

***"Avropa İttifaqı və ABŞ-ın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar artıq "bumeranq effekti" verməyə başlayıb. Bu sanksiyaların dünyanı qlobal iqtisadi böhrana aparmaq riski də var. Əgər Rusiya bu müharibədən uğurla çıxarsa, o zaman Qərb ilə Rusiya yeni dünya düzəni üçün masa arxasına keçib, danışıqlara başlayacaqlar".***



Bu sözləri AzVision.az-a açıqlamasında Türkiyə Silahlı Qüvvələri (TSK) Baş Qərargahının sabiq idarə rəisi, polkovnik Ünal Atabay deyib. Ukrayna və Rusiya XİN rəhbərlərinin Antalya görüşünü şərh edən ekspert bildirib ki, bu forum əslində bir fürsətdir:

- Türkiyə bu fürsəti dəyərləndirdi. Ankara iki ölkə arasında əlaqələndirici funksiyanı öz üzərinə götürdü. Türkiyə hər iki ölkə ilə də normal əlaqələri olduğundan, tərəfləri razı sala bildi. Rusiya Türkiyə vasitəsilə bir növ həm də Qərblə danışmış olacaq. Görüşdə atəşkəs və ya müharibənin dayandırılması ilə bağlı bir qərar çıxarılmaya bilər. Ancaq görüşlərin davam etdirilməsi üçün addım atılmış olacaq. Ən azından iki dövlətin yüksək çinli şəxslərinin üz-üzə danışıqları baş tutdu.

- Müharibədən öncə müsahibəmiz zamanı siz NATO-nun və Amerikanın birbaşa müharibəyə girməyəcəyi bildirmişdiniz. Bəs indi hazırda gedən müharibənin ssenarisini necə görürsünüz?

- Rusiya sadəcə Ukrayna ilə bağlı iddia ortaya qoymayıb. Şərqi Avropada da NATO-nun silah sistemlərinin yerləşdirilməsinə qarşıdır və 1997-ci ilin əvvəllərinə çəkilməsini tələb edir. Əslində iki siyasi hədəfi var. Biri Ukrayna idi ki, savaşa çevrildi. Digəri isə Qlobal Təhlükəsizlik Memarlığının balanslaşdırılmasıdır. Əslində bütün strategiya budur. Ukraynadakı müharibə yekunlaşsa da, ikinci siyasi hədəfin planlarının icrası başlayacaq. Yəni NATO-nun Şərqi Avropadan çıxmasına çalışacaq. Bu da nə deməkdir? NATO-nun Rusiya ilə üz-üzə gəlməsidir. Ukraynadakı müharibə də elə əslində NATO-Rusiya qarşılaşmasıdır.

NATO bu müharibənin Ukraynadan kənara çıxmamasına çalışır. Bu səbəblə bəzi yardımlar edilir Ukraynaya. Amma Rusiya müharibənin Ukraynadan kənara çıxmasında maraqlıdır. Təbii ki, burada Rusiyanın müharibədəki uğur və uğursuzluğu da rol oynayacaq. Əgər uğur əldə edə bilməsə, Şərqi Avropa ilə bağlı hansısa iddia ilə çıxış etməsi çətinləşəcək. Ukraynada Rusiyanın hərbi gücü hiss olunur, ancaq iqtisadi cəhətdən çox böyük yük altındadır.

***Bəxtiyar Məmmədov***

# "Almırlar, almasınlar!" - Lavrov

***"Qərb neft və qazımızı almasa da olar, başqa bazarlarımız var". Bunu Rusiya xarici işlər naziri Sergey Lavrov Antalyada Ukrayna, Rusiya və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşündən sonra deyib.***



Rusiya neft və qazdan heç vaxt silah kimi istifadə etməyib. Bu məhsulların tədarükü məsələsini Qərbin ixtiyarına buraxırıq. Moskva Qərbi neft və qaz alması üçün yola gətirməyə çalışmayacaq. Bizim başqa bazarlarımız da var, - nazir qeyd edib.

Onun sözlərinə görə NATO-nun genişləndirilmə məsələlərində Moskvanın maraqlarını nəzərə almaması Rusiya üçün qəbuledilməzdir.

Lavrov Ukraynada bioloji silahların tətbiqi ilə bağlı Rusiyanın məlumatı olmasa da, ölkədə bioloji laborotoriyaların fəaliyyət göstərməsindən əminliyini ifadə edib.

- Ukraynada biloji silahın tətbiq edilib edilməməsiylə bağlı məlumatım yoxdur. Heç şübhəsiz ki, Ukraynada bu istiqamətdə aparılan eksperimentlər məhz bioloji silahların yaradılmasına yönəlib, - nazir deyib.

Nüvə müharibəsi ehtimalına gəlincə, Rusiya xarici işlər naziri "nüvə müharibəsinin başlayacağına inanmıram və inanmaq da istəmirəm" deyib.

# "2 milyondan çox insan Ukraynanı tərk edib" - BMT

***Birləşmiş Millətlər Təşkilatı (BMT) Rusiyanın Ukraynaya hücumları səbəbindən ölkəni tərk edənlərin sayını açıqlayıb.***

"Unikal" xəbər verir ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) paylaşdığı məlumatda 2 milyon 316 min qaçqının Ukraynadan qonşu ölkələrə keçdiyi bildirilib.

Məlumatda, Polşaya 1 milyon 412 min 503, Macarıstana 214 min 160, Slovakiyaya 165 min 199, Rusiyaya 97 min 98, Rumıniyaya 84 min 671, Moldova 82 min 762, Belarusa 765 və digərlərinə 258 min 84 qaçqın keçdiyi ifadə edilib. Həmçinin 18-23 fevral tarixlərində Donetsk və Luqansk vilayətlərindən 96 min insan Rusiyaya keçib.

"Ukraynada vəziyyət daha da gərginləşərsə, 4 milyona qədər mülki şəxs ölkəni tərk edə bilər", - deyə BMT xəbərdarlıq edib.

# Azərbaycandan bu siyahıya yalnız Qara düşdü - TOP-10

***"Qarabağ"ın yarımmüdafiəçisi Qara Qarayev Avropa Liqasının rekordçuları siyahısına düşüb.***

O, keçmiş SSRİ məkanı ölkələri futbolçuları arasında Avroliqada ən çox matç keçirən oyunçuların TOP-10-luğunda 10-cu yeri tutur.

İnstaqramdakı Transfermarkt_mir_official səhifəsi siyahını hazırlayarkən Avroliqanın keçirilməyə başladığı



2009/10 mövsümündən indiyə qədərki dövrü əhatə edib. Q.Qarayev sözügedən yarışdakı 7 mövsümdə 38 dəfə meydana çıxıb. Bu, Azərbaycan və "Qarabağ"ın futbolçuları arasında ən yaxşı göstəricidir.

Siyahıda ilk üç yeri Yevgeni Konoplyanka (8 mövsüm, 57 oyun), Henrik Mxitaryan (6 mövsüm, 55 oyun) və Andrey Yarmolenko (9 mövsüm, 47 oyun) tutur.

# UEFA və FİFA-dan Cüneyt Çakır reaksiyası

***UEFA və FİFA rəsmiləri türkiyəli referi Cüneyt Çakırın Superliqa oyunlarından kənarlaşdırılmasına səssiz qalmayıb.***

Qol.az "Milliyet"ə istinadən xəbər verir ki, FİFA-nın Hakimlər Komitəsinin rəhbəri Pyerluici Kollina Çakıra zəng vurub. O, referidən nə baş verdiyini soruşub. Çakır isə cavabında Türkiyə Futbol Federasiyasının Mərkəzi Hakimlər Komitəsinin hansı səbəblərdən belə qərar verdiyini bilmədiyini və açıqlama gözlədiyini deyib.

UEFA rəsmiləri isə TFF-nin vitse-prezidenti Servet Yardımcı ilə əlaqə saxlayıblar. Onlar FİFA referiləri Cüneyt Çakır, Ali Palabıyık və



Abdülkadir Bitigenin Superliqadan kənarlaşdırılması qərarına görə təəccübləndiklərini vurğulayıblar. Həmçinin rəsmilər Yardımcıdan bu qərarı niyə verdiklərini soruşublar. Vitse-prezident isə belə bir addımın Mərkəzi Hakimlər Komitəsinin performans və gəncləşdirilmə meyarlarına uyğun atıldığını bildirib.

Qeyd edək ki, bir neçə gün öncə TFF Mərkəzi Hakimlər Komitəsi Cüneyt Çakır da daxil olmaqla 13 hakimi Superliqa oyunlarından kənarlaşdırıb. Sözügedən referilər arasında Ali Palabıyık, Abdulkadir Bitigen, Fırat Aydınus, Bahattin Şimşek, Burak Şeker, Suat Arslanboğa, Hüseyin Göçek, Mert Güzenge, Tuqay Kaan Numanoğlu, Alper Ulusoy və Halis Özkahya var. Özgür Yankaya yalnız VAR hakimi vəzifəsini icra edə biləcək. Qurum klubların narazılığını və hakimlərin yaşını nəzərə almaqla belə qərar verdiklərini açıqlayıb.

# "20 ildir belə qazon görməmişdim" - Mourinyo

***"Roma"nın baş məşqçisi Joze Mourinyo Konfrans Liqasının 1/8 final mərhələsinin "Vitess"lə matç öncəsi Niderland klubunun stadionunun ot örtüyünün vəziyyətini tənqid edib.***

O, "Football İtalia"ya açıqlamasında deyib: "Nə baş verdiyini bilmirəm, amma qazonu görəndə çox əsəbiləşdim. 20 ildir ki, Niderlanda gəlirəm və heç vaxt belə qazon görməmişdim. Bu, meydança çox pis vəziyyətidir".

Qeyd edək ki, bu gün keçiriləcək "Vitess" - "Roma" görüşü Bakı vaxtı ilə 21:45-də başlayacaq.



# "Çelsi"yə daha bir zərbə

***Böyük Britaniyanın "Çlesi"nin sahibi olan rusiyalı iş adamı Roman Abramoviçə qoyduğu sanksiyalar klubun transfer bazarındakı işini məhdudlaşdıracaq.***

Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, London təmsilçisi sözügedən sanksiyalar səbəbindən yeni oyunçu ala və öz futbolçuları ilə müqaviləni yeniləyə bilməyəcək. Lakin bu, klubun işçilərinin maaşını ödəməsinə mane olmayacaq.

Həmçinin "Çelsi" qadağalara görə bilet satışı həyata keçirə bilməyəcək.

Qeyd edək ki, Böyük Britaniya Abramoviçin bütün aktivlərini dondurub. Nəticədə kluba alıcı axtaran rusiyalı iş adamı Premyer Liqa təmsilçisini sata bilməyəcək. Lakin "Çelsi" fəaliyyətini davam etdirmək üçün xüsusi lisenziya alıb.



# Poçettino: "VAR nə işə yarayır?"

***PSJ-nin baş məşqçisi Maurisio Poçettino Çempionlar Liqasınını 1/8 finalında "Real"a 1:3 hesabı ilə uduzduqları cavab oyunu barədə danışıb.***



50 yaşlı mütəxəssis matçdan sonra jurnalsitlərə açıqlamasında qarşılaşmanın hakimlərindən narazı qaldığını deyib. O, Madrid təmsilçisinin oyunçusu Kərim Benzemanın 61-ci dəqədə PSJ-nin qapıçısı Canluici Donnarummaya kobudluq edərək qol vurduğunu düşünür: "Mənə maraqlıdır ki, VAR nə işə yarayır. Çünki "Real"ın ilk qolu oyunun taleyini dəyişdirdi. Çoz təəssüfgBiz 60 dəqiqə ərzində rəqibdən daha üstün oynadıq. Amma o qol hər şeyi dəyişdi".

Qeyd edək ki, komandalar arasında ilk görüş PSJ-nin minimal hesablı qələbəsi ilə başa çatıb - 0:1. Lakin Paris təmsilçisi cavab oyununda 1:3 hesabı ilə uduzaraq turnirlə vidalaşıb.

# "Benzema bütün Madridi sevindirdi" - Ançelotti



***"Çətin oyun oldu, xüsusən də ilk hissədə Mbappenin qolundan sonra çətin anlar yaşadıq. İlk qolumuz həm tribunada, həm də meydanda əhval-ruhiyyəni dəyişdi. Bir saat ərzində əla və keyfiyyətli oynadıq.Enerjimiz çox idi. Benzema bütün Madridi sevindirdi".***

Bu sözləri "Real"ın baş məşqçisi Karlo Ançelotti Çempionlar Liqasının 1/8 finalında PSJ-yə 3:1 hesabı ilə qalib gələrək növbəti mərhələyə yüksəldikləri cavab oyunundan sonra deyib.

"PSJ əla komandadır, çox yaxşı oynadılar. Ancaq hər görüşdə onun ssenarisini dəyişə biləcəyin bir məqam var. Biz bundan istifadə etdik" - deyə o bildirib.

Ançelotti sözügedən görüşdə het-trik edən futbolçusu Kərim Benzema haqda müsbət fikirlər səslndirib: "Benzema komandamızın fantastik lideridir, fantastik hücumçudur. Ondan razıyam".

# Krivotsyuk millimizə çağırıldı

***Polşa "Visla"sının (Plotsk) futbolçusu Anton Krivotsyuk millimizə çağırılıb.***

"Unikal" klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, 23 yaşlı müdafiəçi Malta və Latviya ilə yoldaşlıq oyunları üçün yığmamıza dəvət alıb.

Qeyd edək ki, millimiz martın 24-də Malta, martın 28-də isə Latviya ilə qarşılaşacaq. Hər iki görüş Malta Milli stadionunda keçiriləcək.

# "Bu, Donnarummanın günahı deyil"

***"Real"ın hücumçusu Kərim Benzema Çempionlar Liqasının 1/8 final mərhələsinin cavab oyununda PSJ üzərində qələbəni (3:1) şərh edib.***

"Unikal" UEFA-nın saytına istinadən xəbər verir ki, o, matçın çətin keçdiyini deyib: "Bizim azarkeşlərin dəstəyinə ehtiyacımız var idi. Qələbə onlar üçündür. Oyun çox çətin keçdi, lakin biz sona qədər mübarizə apardıq. Qələbəyə layiq idik. İlk oyunda 0:1 hesabı ilə uduzduq və azarkeşlərimiz final fitinə qədər bizə güc verdilər.

İlk qol? Bu, Donnarummanın günahı deyil. Bu, bütün komandanın təzyiqidir. Qapıçı gözlədi və sonda topu itirdi. Bu da qola səbəb oldu. Onun etməli olduğu tək şey topdan qurtulmaq idi".

Fransalı hücumçu Madriddə hər şeyin fərqli olacağını əvvəlcədən bildiklərini söyləyib: "Təzyiq etdik, ancaq qol buraxdıq. Lakin şansımızın olacağına şübhə etmirdik".

Qeyd edək ki, Benzema PSJ il cavab görüşündə het-trikə imza atıb.